QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



*"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir*

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 168 (5888) **14 sentyabr** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Prezident İlham Əliyev Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin açılışında iştirak edib



Səh 2

7

**"Həyatımızda böyük irəliləyişlər baş verib"**



7

**Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin iclası keçirilib**



8

**Bakının qurtuluşu-işğaldan azad edilməsindən 101 il keçir**



# Prezident İlham Əliyev Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin açılışında iştirak edib





***Sentyabrın 13-də Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin açılışı olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib. Təhsil naziri Ceyhun Bayramov görülən işlərlə bağlı dövlətimizin başçısına ətraflı məlumat verdi.***

Bildirdildi ki, Təhsil Nazirliyi və Koreya Respublikasının "KT Konsorsium" şirkəti arasında imzalanan saziş əsasında 2016-cı ildə yaradılan Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi beynəlxalq təhsil standartlarına əsaslanan, qlobal sənaye ehtiyaclarına hazır rəqabətqabiliyyətli kadrlar hazırlığını həyata keçirən peşə təhsili müəssisəsidir.

Mərkəzdə sənaye qurumlarında istehsal proseslərini təşkil edən və innovativ texnologiyalarla işləmək bacarığına malik olan mütəxəssislərin hazırlanması nəzərdə tutulur. Dövlətimizin başçısı Mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi. Prezident İlham Əliyev Peşə Təhsil Mərkəzində yaradılan şəraitlə yaxından tanış oldu.

Bildirildi ki, Mərkəz Koreya Respublikasının peşə təhsili modeli əsasında qurulub. Mərkəzdə nəzəri və praktiki bacarıqların formalaşdırılması üçün bütün şərait yaradılıb. Burada təhsil alanlara avtomobilə texniki xidmət göstərməkdən tutmuş İKT-nin yenilikləri əsasında formalaşan modellər öyrədiləcək. Ən müasir maddi-texniki baza ilə təchiz edilən mərkəz 8 fərqli ixtisas üzrə 1 illik proqramlarda təhsil almaq imkanını nəzərdə tutur. Tədris prosesi tam yeni formatda Koreyada təlim keçmiş ixtisaslı mütəxəssislər tərəfindən təşkil olunacaq. Bu ixtisaslar üzrə təhsilini başa vuran tələbələr üçün davamlı təhsil və geniş iş imkanları yaradılacaq. Onlar öz ixtisaslarını praktiki şəkildə reallaşdırmaq bacarıqları və vərdişlərinə yiyələnəcəklər. Səkkiz texniki ixtisasla yanaşı, Mərkəzdə qısamüddətli ixtisasartırma kursları da təşkil olunacaq. Həmçinin tələbələr beynəlxalq sertifikatlı kurslarda iştirak edə biləcəklər.

Bu cür peşə məktəblərinin istifadəyə verilməsi ali məktəblərə qəbul ola bilməyənlər üçün çox mühüm əhəmiyyət kəsb edir. Ali məktəbə qəbul ola bilməyən məzun belə peşə məktəbinə daxil olmaqla peşə vərdişlərinə yiyələnərək gələcəkdə istədiyi sahədə çalışa bilər. Bu cür layihələrin icrası peşə təhsilinin inkişafına töhfə verməklə yanaşı, məşğulluğun artırılmasında da mühüm rol oynayır.

Dövlət peşə təhsili müəssisələrinin büdcədənkənar gəlir və xərclərinin şəffaf, səmərəli və mərkəzləşdirilmiş qaydada idarə olunmasının təmin edilməsi və peşə təhsilinin inkişafında maliyyələşmə mexanizmi rolunu oynamasının həyata keçirilməsi məqsədilə Peşə Təhsilinin İnkişafı Fondu yaradılıb, peşə təhsili sahəsində bir sıra normativ hüquqi aktlar hazırlanıb. Peşə təhsili müəssisələrinin birləşdirilməsi və müəyyən peşə istiqamətləri üzrə ixtisaslaşmış peşə təhsili mərkəzlərinin yaradılması yolu ilə həyata keçirilən peşə təhsili müəssisələri şəbəkəsinin rasionallaşdırılması və optimallaşdırılması, müasir standartlara cavab verən pilot peşə təhsili müəssisələrinin qurulması Yol Xəritəsində qarşıya qoyulan mühüm vəzifələrdəndir.

2018-ci ildə regionlarda və Bakıda fəaliyyət göstərən 55 peşə təhsili müəssisəsinin bazasında 24 Dövlət Peşə Təhsil Mərkəzi yaradılıb. Qeyd olunan istiqamətdə daha iki mərkəzin yaradılması nəzərdə tutulub. Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi artıq publik hüquqi şəxs statusu alıb. Digər Peşə Təhsili mərkəzlərinin də publik hüquqi şəxs statusunda fəaliyyət göstərməsi istiqamətində hazırlıqlar gedir. Bununla yanaşı, "Azərbaycan peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi"ndə ilkin mərhələdə 2020-ci ilədək müxtəlif istiqamətli 10 pilot peşə təhsil müəssisəsinin qurulması hədəf kimi müəyyənləşdirilib. Strateji Yol Xəritəsinə əsasən, pilot peşə təhsili müəssisələrinin müasir standartlara cavab verməsi və tələbata uyğun fəaliyyət göstərməsi üçün onların əsaslı təmiri və ya yeni peşə təhsili müəssisələrinin tikintisi nəzərdə tutulur. Dövlətimizin başçısının Sərəncamına əsasən, 2018-ci il yanvarın 1-dən dövlət peşə təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış müəllimlərin həftəlik dərs yükü norması 1,5 dəfə, aylıq vəzifə maaşları orta hesabla 2 dəfə artırılıb. Əmək bazarının tələblərinə cavab verən ixtisaslı kadrların hazırlanmasında və işlək peşə təhsili modelinin qurulmasında işəgötürənlərlə birgə əməkdaşlıq bu sahənin inkişafı üçün mühüm önəm kəsb edir. Ümumilikdə bu il ərzində peşə təhsili müəssisələrinin 420 nəfərlik mühəndis-pedaqoji heyəti üçün 29 təlim həyata keçirilib. Peşə təhsili müəssisələrinə sənəd qəbulu "ASAN xidmət" mərkəzlərində, "ASAN xidmət" mərkəzlərinin fəaliyyət göstərmədiyi şəhər və rayonlar üzrə isə müvafiq peşə təhsili müəssisələrində ödənişsiz şəkildə və elektron qaydada həyata keçirilib. Bütün bunlar isə peşə təhsili sahəsinə birbaşa müsbət təsir göstərməklə özünü gələcəkdə müxtəlif sahədə mütəxəssis kimi sınamaq istəyənlərə geniş imkanlar açır.



# Azərbaycanda təhsilin inkişafına dövlət səviyyəsində qayğı göstərilir

## *Prezident İlham Əliyev Suraxanı rayonunda əsaslı şəkildə yenidən qurulan 208 nömrəli məktəbdə yaradılan şəraitlə tanış olub*





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 13-də Bakının Suraxanı rayonunda əsaslı şəkildə yenidən qurulan 208 nömrəli orta məktəbdə yaradılan şəraitlə tanış olub. AZƏRTAC xəbər verir ki, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov və məktəbin direktoru Məlahət Əsədova dövlətimizin başçısına görülən işlərlə bağlı məlumat verdilər.

**Prezident İlham Əliyev:** Bu məktəb əsaslı təmir olunub?

**Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov:** Xeyr, sökülüb, yenidən tikilib. Üç il fəaliyyətsiz olub.

Bildirildi ki, məktəbin binası 1938-ci ildə istifadəyə verilmişdi. O zaman 360 yerlik binada ümumilikdə 2 növbədə 800 şagird təhsil alırdı. Bu təhsil ocağı qəzalı vəziyyətdə olduğundan fəaliyyətini dayandırıb və müvəqqəti olaraq 140 saylı tam orta məktəbdə fəaliyyət göstərib. Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbir Planına əsasən, 2019-cu ilin mayında məktəbin mövcud binası sökülərək yerində yenisi inşa olunub. 360 şagird yerlik yeni məktəb binası müasirliyi ilə seçilir. Burada müxtəlif fənn otaqları bütün zəruri inventarla təchiz olunub. Bir sözlə, təhsil müəssisəsində şagirdlərin elmin sirlərinə dərindən yiyələnmələri, müəllimlərin isə pedaqoji fəaliyyətlə yüksək səviyyədə məşğul olmaları üçün hərtərəfli imkanlar var.

Qeyd edildi ki, məktəbdə hazırda 320 şagirdin təlim-tərbiyəsi ilə 31 nəfərdən ibarət pedaqoji kollektiv məşğuldur. Son 10 ildir ki, məktəbin şagirdlərinin 70-80 faizi ali təhsil ocaqlarına qəbul olur. Şagirdlər müxtəlif bilik, idman yarışlarında, olimpiadalarda təhsil ocağını layiqincə təmsil edirlər. Bu təhsil ocağının 10-cu sinif şagirdi güləş üzrə Avropa çempionudur.

Azərbaycanda dövlət səviyyəsində təhsil sahəsinin maddi-texniki bazasının möhkəmləndirilməsi və bu sferada innovativ üsulların tətbiqi məsələsinə daim xüsusi diqqətlə yanaşılır. Son illərdə çoxlu sayda yeni məktəb binasının və korpusların inşası, mövcud təhsil müəssisələrinin yüksək səviyyədə yenidən qurulması, onların zəruri tədris avadanlığı ilə təchiz olunması təhsil sahəsinin müasirləşdirilməsi istiqamətində həyata keçirilən işlərin tərkib hissəsidir. Bütün bunlar bir daha sübut edir ki, insan kapitalının formalaşmasında müstəsna rola malik olan təhsil sahəsinin inkişafına ölkəmizdə ən yüksək səviyyədə diqqət göstərilir. Bu isə gənc nəslin bilikli, savadlı və intellektual səviyyədə yetişməsində, həmçinin müəllimlərin təlim-tədris prosesini müasir şəraitdə aparmasında mühüm rol oynayır.

**Prezident İlham Əliyev:** Təbrik edirəm. Sizə uğurlar arzulayıram.

**Məlahət Əsədova:** Cənab Prezident, şagirdlər və valideynlər adından Sizə dərin minnətdarlığımızı bildiririk. Çox sağ olun ki, kənd yerində belə bir gözəl məktəb tikdirmisiniz.

**Prezident İlham Əliyev:** Şəhərimizin hər bir yerində məktəblər tikilir, əsaslı təmir olunur, bu proqram uğurla icra edilir. Bu məktəbin yenidən tikilməsi bizim siyasətimizi əks etdirir. Təhsil sahəsinə göstərilən diqqət, eyni zamanda, infrastrukturun yaranmasında da özünü əks etdirir. Valideynlərə də, müəllimlərə də salam söyləyin. Sağ olun.

**Məlahət Əsədova: S**ağ olun cənab Prezident.

# Prezident İlham Əliyev Bakıda yenidən qurulan Aşıq Molla Cümə küçəsinin və ona bitişik yolların açılışında iştirak edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 13-də Bakı şəhərinin Nərimanov rayonunda yenidən qurulan Aşıq Molla Cümə küçəsinin və ona bitişik yolların açılışında iştirak edib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin idarə heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına yenidənqurma tədbirləri barədə məlumat verdi.

Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 28 mart tarixli müvafiq Sərəncamına əsasən Bakının Nərimanov rayonu ərazisində şəhər əhəmiyyətli Aşıq Molla Cümə küçəsinin və ona bitişik yolların yenidən qurulması Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə tapşırılıb və bu işlər qısa müddətdə yüksək səviyyədə yerinə yetirilib. Molla Cümə küçəsində, Həsən Əliyev və Yusif Vəzir Çəmənzəminli küçələrinin bir hissəsində, həmçinin, Molla Cümə və Əhməd Rəcəbli küçələrini birləşdirən yollarda yeni və müasir yol infrastrukturu yaradılıb. Yenidən qurulan yolların ümumi uzunluğu 6 kilometrdir.

Paytaxtda yeni yolların salınması, yolötürücülərin, yeraltı və yerüstü piyada keçidlərinin, çoxmərtəbəli avtomobil dayanacaqlarının layihələndirilməsi və tikilməsi, mövcud yol qurğularının təmiri və yenidən qurulması sahəsində silsilə tədbirlər reallaşdırılır. İndiyə qədər görülən işlər nəticəsində paytaxtda və ətraf qəsəbələrdə yeni alternativ yol infrastrukturları formalaşdırılıb, şəhərin mərkəzindən bir sıra istiqamətlərə, o cümlədən ətraf qəsəbələrə rahat və sürətli gediş-gəliş təmin edilib, müəyyən qisim yollarda avtomobillərin hərəkətində məhdudiyyətlər və ləngimələr aradan qaldırılıb, bəzi yolların buraxılış qabiliyyəti artırılıb, yoldan istifadə asanlaşıb, paralel yeni yollar açılıb və sair irəliləyişlərə nail olunub. Ümumilikdə, 2003-cü ildən bəri respublikamızda 16 min kilometrdən çox avtomobil yolu yenidən qurulub, bərpa və təmir edilib. Bunun 500 kilometrdən çox hissəsi 2019-cu ilin 8 ayında reallaşdırılıb. Bu ilin sonuna ölkəmizdə yenidən qurulan, bərpa və təmir edilən yolların uzunluğu 17 min kilometrdən çox olacaq. 2003-cü ildən bəri təkcə Bakıda avtomobil yollarının 1500 kilometrdən çox hissəsində yenidənqurma, təmir və bərpa işləri həyata keçirilib. Bunun 200 kilometrdən çoxu 2019-cu ilin 8 ayında reallaşdırılıb. Sonda xatirə şəkli çəkdirildi.



# “Mən çox şadam ki, biz belə qısa zamanda bu işlərin nəticəsini görürük”

## *Birinci vitse-prezident Mehriban Əliyeva Kürdəxanı qəsəbəsindəki 113 nömrəli məktəbdə yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olub*









***Sentyabrın 13-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Kürdəxanı qəsəbəsində Hüseynbala Ağaverdiyev adına 113 nömrəli tam orta məktəbdə həyata keçirilən əsaslı təmir və yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olub. AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident əvvəlcə sıralarında məktəbin məzunlarının da olduğu şəhid Kürdəxanı sakinlərinin xatirəsinə ucaldılan abidəyə baxdı.***

Qeyd edək ki, 1971-ci ildən fəaliyyətə başlayan bu məktəbin binasında cari təmir işləri 2006-cı ildə aparılıb. İki il sonra - 2008-ci ildə şagird sıxlığı nəzərə alınaraq 300 yerlik əlavə korpus tikilib.

Bu ilin mayında Birinci vitse-prezident Mehriban Əliyevanın göstərişi ilə təhsil ocağı yenidən qurulub.

Əvvəllər fənn kabinetləri yararsız vəziyyətdə idi, bu isə tədris prosesinin keyfiyyətinə maneçilik törədirdi. Ancaq yeni tədris ilində bu problem aradan qaldırıldı.

Təhsil ocağının sinif otaqları, fənn kabinetləri, informatika-linqafon otağı, kitabxana, akt və idman zalları ilə tanış olan Birinci vitse-prezident Mehriban Əliyevaya məlumat verildi ki, hər iki korpusda 47 sinif otağı, 2 informatika və 1 linqafon otağı, kimya, biologiya, fizika fənn kabinetləri, akt, idman və musiqi zalları istifadəyə verilib.

Təmirdən əvvəl məktəb 1150 şagird yerlik olub. Hazırda əlavə sinif otaqlarının artırılması hesabına burada 1200 şagirdin təhsil alması üçün şərait yaradılıb. Təhsil ocağının həyətində yaşıllıq sahəsi salınıb, abadlıq-quruculuq işləri aparılıb. Məktəbin həyətində müasir tələblərə cavab verən qaçış və futbol meydançası da yaradılıb.

Məktəbin kollektivi ilə görüşüb, onlara yeni dərs ilində uğurlar arzulayan Birinci vitse-prezident Mehriban Əliyeva dedi:

-Mən bu gün burada olmaqdan çox şadam. Yəqin bilirsiniz ki, cari ilin may ayında hörmətli Telman Əliyev məni öz evinə dəvət etmişdi və həmin ay qızımla Kürdəxanı qəsəbəsində oldum. Çay süfrəsi ətrafında qəsəbədə olan problemlər haqqında geniş söhbət etdik. Həmin vaxt bu məktəbə də baxdım və sakinləri narahat edən məsələlərin aradan qaldırılması üçün lazımi tapşırıqlar verildi. Mən çox şadam ki, 113 nömrəli məktəb qısa bir zamanda, yəni, üç ay ərzində, təmir edilib, amma demək olar ki, müasir səviyyədə yenidən qurulub. Əminəm ki, bu məktəb yeni tədris ilində həm şagirdlərə, həm də onların valideynlərinə xoş bir hədiyyə olacaq.

Məktəb 1971-ci ildə inşa olunub, 2008-ci ildə əlavə korpus tikilib və bu vaxt ərzində bir neçə dəfə təmir də olunub. Amma buna baxmayaraq, çox yararsız vəziyyətdə idi. İndi isə çox gözəl, müasir, bütün lazımi avadanlıqla təmin olunmuş yeni bir məktəbdir.

**Ardı Səh. 5**

# "Mən çox şadam ki, biz belə qısa zamanda bu işlərin nəticəsini görürük"

## *Birinci vitse-prezident Mehriban Əliyeva Kürdəxanı qəsəbəsindəki 113 nömrəli məktəbdə yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olub*







**Əvvəli-Səh-4**

Burada 1200 şagird təhsil ala bilər. Amma mən yenə də sakinlərin xahişini və şagirdlərin 2000-dən çox olduğunu nəzərə alaraq hesab edirəm ki, Kürdəxanı qəsəbəsində yeni bir məktəbin tikintisinə ehtiyac var. Tapşırıqlar verilib və qısa bir zamanda yeni məktəbin tikintisinə başlanılacaq.

Bundan əvvəl gözəl bir parkın açılışında iştirak etdim. Ümumi sahəsi 2,6 hektar olan park vaxtilə Zeytunluq adlanan ərazidə yerləşir. Sakinlərin belə bir xahişi var idi ki, asudə vaxtı keçirmək üçün bu cür bir yer olsa, çox gözəl olar. Artıq müasir, gözəl, tamamilə yenidən qurulmuş park sakinlərin istifadəsinə verilib. Ən vacibi isə odur ki, bütün ağaclar saxlanılıb, heç bir ağac kəsilməyib. Eyni zamanda, müasir işıqlandırma sistemi, uşaqlar üçün oyun meydançası, müasir kafe qurulub. Mən çox şadam ki, biz belə qısa zamanda bu işlərin nəticəsini görürük. Bu, Azərbaycan Respublikasının Prezidenti tərəfindən aparılan siyasətin nəticələridir. Siz bilirsiniz ki, Bakı şəhərinin, Bakıətrafı qəsəbələrin, regionların inkişafı proqramları artıq 15 ildən çoxdur həyata keçirilir. Məqsəd ondan ibarətdir ki, ölkəmizin hər bir qəsəbəsində, hər bir regionunda, hər bir kəndində müasirlik, inkişaf, yeniləşmə prosesləri olsun. Bunun da əsas məqsədi odur ki, insanların yaşayış səviyyəsi qalxsın. Paytaxtımız Bakı da bu gün dünyanın ən gözəl şəhərlərindən biridir.



Mən çox şadam və sizi təbrik edirəm. Mənim salamlarımı, hörmətimi, təbriklərimi Kürdəxanı qəsəbəsində yaşayan bütün insanlara çatdırın. Çox sağ olun.

XXX

Ümumiyyətlə, bu gün Sabunçu rayonun Kürdəxanı qəsəbəsində quruculuq-abadlıq işləri sürətlə gedir. 12 min 200 nəfər əhalinin yaşadığı qəsəbədə qazlaşma uğurla davam edir, yol infrastrukturunun inkişafı ilə bağlı işlər görülür, küçələrin bərpası həyata keçirilir, yeni işıqlandırma sistemi quraşdırılır.

Kürdəxanı sakini Telman Əliyev və məktəbin təlim-tərbiyə işləri üzrə direktor müavini Şirinxanım Abbasova Birinci vitse-prezidentə göstərdikləri diqqətə görə minnətdarlıqlarını bildirdilər.

Telman Əliyev: Çox sağ olun ki, təşrif buyurub gəldiniz. Böyük işlər görmüsünüz. Yollarımız çox gözəldir. Çox sağ olun. Allah Sizə, ailənizə cansağlığı versin.

Birinci vitse-prezident Mehriban Əliyeva: Çox sağ olun. Yollar barədə deyə bilərəm ki, qəsəbədaxili 115 küçə, ümumilikdə 70 kilometr uzunluğunda yollar tamamilə yenidən qurulub. Bu da əlbəttə, burada yaşayan insanlar üçün böyük rahatlıqdır.

Şirinxanım Abbasova: Hörmətli Mehriban xanım, məktəbimizin kollektivi adından Sizi salamlayırıq, Sizə minnətdarlığımızı bildiririk. Həm sakinlər adından, həm məktəbin pedaqoji kollektivi adından Sizə "Çox sağ olun!" deyirik. Sizin bu böyük işinizi yüksək qiymətləndiririk. Çox sağ olun.

Birinci vitse-prezident Mehriban Əliyeva: Çox sağ olun, mənim borcumdur. Bilirsiniz, mən hər zaman insanlarla ünsiyyətdə olmağa və onların problemlərini eşitməyə çalışıram. Bilirsiniz, mən də, cənab Prezident də hər zaman sizin yanınızdayıq. Siz bizim güc mənbəyimizsiniz.

Şirinxanım Abbasova: Məktəbin kollektivi adından Sizi əmin edirik ki, Sizin, bax, bu qədər gördüyünüz işlər qarşısında biz də daha böyük səylə çalışacağıq, bütün qüvvə və bacarığımızı gənc nəslin təlim-tərbiyəsinə həsr edəcəyik. Bir daha qəsəbə sakinləri, məktəbin pedaqoji kollektivi adından Sizə öz minnətdarlığımızı bildiririk. Sağ olun, var olun. Birinci vitse-prezident Mehriban Əliyeva: Çox sağ olun.

X X X

Sonda xatirə şəkli çəkdirildi.

# Birinci vitse-prezident Mehriban Əliyeva Kürdəxanıda yeni salınan parkda yaradılan şəraitlə tanış olub









***Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva sentyabrın 13-də Sabunçu rayonunun Kürdəxanı qəsəbəsində yeni salınan istirahət parkında yaradılan şəraitlə tanış olub.***

AZƏRTAC xəbər verir ki, dörd ay əvvəl paytaxtın Sabunçu rayonunun Kürdəxanı qəsəbəsinə gələn Birinci vitse-prezident burada görülməsi vacib olan sosial və infrastruktur işlərinin qısa vaxt ərzində həyata keçirilməsi ilə bağlı göstərişlərini vermişdi. Bunlardan biri qəsəbə sakinləri üçün salınan yeni istirahət parkıdır. Sabunçu Rayon İcra Hakimiyyətinin başçısı Adil Vəliyev parkda yaradılan şəraitlə tanış olan Birinci vitse-prezident Mehriban Əliyevaya görülən işlər barədə məlumat verdi. Yeni park Zeytunluq adlanan ərazidə yerləşir. Ərazisi 2,6 hektar olan bu istirahət məkanındakı zeytun ağacları 30-35 il əvvəl əkilib. Həmişəyaşıl, insan sağlamlığı üçün faydası hamıya bəlli olan bu qiymətli bitkilərə xüsusi qulluq göstərilib.

Onu da deyək ki, bu vaxta qədər Kürdəxanı qəsəbəsində park olmayıb, ərazi baxımsız vəziyyətdə idi. Bu gündən isə əhalinin istirahəti üçün lazımi şəraitlə təmin edilən yeni park sakinlərin istifadəsindədir. Ərazidə abadlıq işləri aparılıb, sahə dekorativ hasara alınıb, işıq dirəkləri, oturacaqlar, uşaqlar üçün oyun meydançası quraşdırılıb, "Zeytun" kafesi inşa edilib. Heç şübhəsiz ki, Kürdəxanı qəsəbəsində yaradılan yeni park sakinlərin sevimli istirahət guşələrindən birinə çevriləcək.



# YAP Qaradağ rayon təşkilatı müşavirə keçirib



Dünən Azərbaycan Respublikası Baş nazirinin müavini, Yeni Azərbaycan Partiyası Sədrinin müavini-İcra katibi Əli Əhmədovun sədrliyi ilə Yeni Azərbaycan Partiyası Qaradağ rayon təşkilatının ərazi ilk partiya təşkilatları sədrlərinin müşavirəsi keçirilib. SİA-nın verdiyi məlumata görə, Müşavirə iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib, önünə tər çiçək dəstələri düzüblər.

Qaradağ rayonu Heydər Əliyev Mərkəzində keçirilən müşavirədə çıxış edən Azərbaycan Respublikası Baş nazirinin müavini, Yeni Azərbaycan Partiyası Sədrinin müavini-İcra katibi Əli Əhmədov Prezident İlham Əliyevin siyasəti nəticəsində Azərbaycanın ötən illər ərzində böyük inkişaf yolu keçdiyini, iqtisadiyyatın artması, əhalinin sosial rifahının yüksəldilməsi, ölkəmizin beynəlxalq müstəvidə mövqeyinin gücləndirilməsi istiqamətində mühüm addımlar atıldığını söyləyib.

Əli Əhmədov bildirib ki, son illər Azərbaycan iqtisadiyyatı bir neçə dəfə artıb. Təbii ki, iqtisadiyyatın inkişafı dövlətin sosial siyasətinin daha da güclənməsinə zəmin yaradır. Bu mənada əhalinin rifah halının yüksəlməsi istiqamətində atılan addımlar bunun əyani göstəricisidir. Bu ilin əvvəlindən Prezident İlham Əliyevin müvafiq Fərman və sərəncamları ilə ölkəmizdə əmakhaqlarının, təqaüdlərin, sosial müavinətlərin və digər sosial ödənişlərin əhəmiyyətli dərəcədə artırıldığını deyən Baş nazirin müavini qeyd edib ki, ölkəmizdə qayğıya ehtiyacı olan insanlara dövlətimiz lazımi diqqəti göstərir. Onun sözlərinə görə, hər bir ailə bu artımlardan faydalanır. Əli Əhmədov deyib ki, Azərbaycan dövləti gücləndikcə əhalinin rifah halının daha da yüksəldilməsi istiqamətində növbəti addımlar atılacaq. Azərbaycanın beynəlxalq miqyasda da nüfuzunun davamlı olaraq artdığını deyən Əli Əhmədov ölkəmizin dünyada və regionda baş verən proseslərdə fəal mövqe nümayiş etdirdiyini söyləyib.

Əli Əhmədov həmçinin bu il ölkəmizdə bələdiyyə seçkilərinin keçiriləcəyini deyib və partiyamızın bu seçkilərə hazırlığı məsələləri haqqında da fikirlərini bildirib. Qeyd edib ki, bələdiyyə seçkiləri ilə əlaqədar ölkədə siyasi canlanma müşahidə olunur. O, Yeni Azərbaycan Partiyasının böyük resurslarının və seçki təcrübəsinin olduğunu deyərək bu seçkilərdə də uğur qazanılacağına əminliyini ifadə edib. Bununla belə, Azərbaycanın inkişafını və güclənməsini istəməyən qüvvələrin olduğunu deyən YAP Sədrinin müavini həmin dairələrin müxtəlif vasitələrlə ölkəmizə qarşı qarayaxma kampaniyası apardıqlarını qeyd edib. Bu vasitələrin biri də sosial şəbəkələrdir. Onun sözlərinə görə, xaricdə özünü mühacir adlandıranlar müəyyən qüvvələrin maraqlarına xidmət edərək ölkəmizin, dövlət rəhbərliyinin imicinə zərbə vurmağa çalışırlar.

YAP Sədrinin müavini vurğulayıb ki, belə kampaniya aparanlar cəmiyyətimizdə ifşa olunmalıdırlar. Ona görə də partiyamızın üzvləri Azərbaycanın qazandığı nailiyyətləri insanlar arasında geniş təbliğ etmək işini fəal şəkildə davam etdirməlidirlər. O cümlədən ölkəmizə qarşı qarayaxma kampaniyası aparan dairələrin, radikal müxalifətin əsl niyyətləri ifşa olunmalıdır.

Müşavirədə YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov qarşıda duran vəzifələrlə əlaqədar ərazi ilk partiya təşkilatı sədrlərinə müvafiq tövsiyə və tapşırıqlar verib. Müşavirədə Yeni Azərbaycan Partiyası İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlarla iş komitəsinin sədri Siyavuş Novruzov iştirak edib.

# Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin iclası keçirilib



Sentyabrın 13-də Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin iclası keçirilmişdir. İclasda Yeni Azərbaycan Partiyasının 2019-cu ilin dekabr ayında Azərbaycan Respublikasında keçiriləcək Bələdiyyə seçkilərinə hazırlıq işləri müzakirə edilmiş, İcra Katibliyinin cari ilin iyun, iyul, avqust aylarında görülən işlərinə dair hesabatı dinlənilmişdir.

Qeyd olunmuşdur ki, bu ilin dekabr ayında ölkəmizdə keçiriləcək bələdiyyə seçkilərinə hazırlıq işlərinə artıq start verilmişdir. Partiyamızın bu seçkilərə hazırlığı məsələləri təsdiq edilmiş tədbirlər planına uyğun olaraq həyata keçirilir. Cəmiyyətdəki yüksək nüfuzu və zəngin seçki təcrübəsi olan Yeni Azərbaycan Partiyasının bu seçkilərdə də uğur qazanılacağına əminlik ifadə edilmişdir.

İclasda YAP İcra Katibliyinin ötən üç ay ərzində həyata keçirdiyi tədbirlərin xüsusi əhəmiyyəti qeyd edilmiş, onların, nəinki partiyanın həyatında, bütövlükdə ölkəmizin ictimai-siyasi həyatında mühüm hadisə kimi dəyərləndirildiyi nəzərə çatdırılmışdır. İclasda həmçinin, bir sıra cari məsələlər müzakirə edilmiş və müvafiq qərar qəbul edilmişdir.

# "Həyatımızda böyük irəliləyişlər baş verib"



"Bizi narahat edən odur ki, Azərbaycanda bəzi qüvvələr tərəfindən siyasi proseslərdə normal seçki texnologiyalarından tamamilə fərqli formada istifadə etmək təcrübəsi yayılmağa başlayıb". SİA-nın verdiyi məlumata görə, bunu YAP Sədrinin müavini - icra katibi, Baş nazirin müavini Əli Əhmədov Yeni Azərbaycan Partiyası (YAP) Qaradağ rayon ərazi ilk təşkilat sədrlərinin müşavirəsində deyib.

Ə.Əhmədov bildirib ki, dekabrda növbəti bələdiyyə seçkisi keçiriləcək. İcra katibi qeyd edib ki, bugünkü müşavirədə bələdiyyə seçkiləri ilə bağlı hazırlıq müzakirə olunacaq: "YAP hər zaman seçkilərə yüksək səviyyədə hazırlaşır. İndiyə qədər qazandığımız qələbələr də bunun bariz nümunəsidir. Eyni zamanda, YAP qarşıdan gələn bələdiyyə seçkilərinə ciddi şəkildə hazırlaşır. İnanırıq ki, bu seçki də YAP namizədlərinin qalib gəlməsi ilə başa çatacaq".

YAP icra katibi qarşıdan gələn bələdiyyə seçkiləri ilə əlaqədar siyasi həyatda bir canlanma müşahidə olunduğunu qeyd edib: "Azərbaycan son illər böyük inkişaf yolu keçib. Həyatımızda böyük irəliləyişlər baş verib. Bu inkişaf prosesləri hər birimizin gözü önündə baş verib. Azərbaycanın inkişafını digər ölkələrin inkişaf templəri ilə müqayisə etsək, Azərbaycan ən sürətli inkişaf edən ölkələrdən biridir. Azərbaycan ən uğurlu gənc dövlətlərdən biri hesab olunur. Ölkəmizin inkişafı, insanların rifahının yaxşılaşması fonunda Azərbaycana qarşı bir sıra dairələr kampaniyalar aparır. Xüsusən, ayrı-ayrı ölkələrdə sığınacaq alanların fəaliyyəti narahatlıq doğurur".

# YAP-ın nümayəndə heyəti Çin səddində



Çin Kommunist Partiyası ilə Yeni Azərbaycan Partiyası arasında əlaqələrin 20 illiyi ilə bağlı tədbirlərdə iştirak etmək üçün bu ölkədə səfərdə olan Azərbaycan nümayəndə heyəti dünən dünyaca məşhur, bəşər tarixinin 7 möcüzəsindən biri olan Çin səddinə ekskurs ediblər. SİA-nın verdiyi məlumata görə, nümayəndə heyətinin üzvləri sədd üzərində Azərbaycanın və YAP-ın bayraqlarını dalğalandırıblar.Xatırladaq ki, Milli Məclisin komitə sədri, YAP Siyasi Şurasının üzvü Hadı Rəcəblinin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyasının 19 nəfərdən ibarət nümayəndə heyəti sentyabrın 11-17 tarixləri arasında Çində səfərdə olacaqdır.



# Bakının qurtuluşu- işğaldan azad edilməsindən 101 il keçir

## Prezident İlham Əliyev: "Türk əsgərlərinin göstərdikləri qəhrəmanlıq bu gün Türkiyə və Azərbaycan birliyini daha da möhkəmləndirir"

***15 sentyabr Bakının işğaldan azad olunmasından 101 il keçir. 101 il bundan əvvəl - 1918-ci il sentyabrın 15-də Nuru Paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusu və Azərbaycan Korpusu Bakıya daxil olaraq şəhəri erməni-bolşevik işğalından azad edib. Beləliklə, həm Azərbaycanın müstəqilliyi təmin olunub, həm də ermənilərin və bolşeviklərin Bakı və ətraf rayonlardakı ağalığına son qoyulub. Bakının erməni-bolşevik işğalından azad edilməsi XX əsr Azərbaycan tarixinin ən şərəfli səhifələrindən biridir.***







1918-ci ilin mayında Azərbaycanın müstəqilliyinin elan olunmasına baxmayaraq, ölkə ərazisinin bir hissəsi - Bakı və ətraf rayonlar erməni-bolşevik işğalı altında idi. Bunsuz isə Azərbaycanın dövlət müstəqilliyini təsəvvür etmək çətin idi. Müstəqilliyə təzə qovuşmuş, beynəlxalq aləmdə hələ tanınmayan gənc dövlətimizin isə ərazi bütövlüyünü təmin etmək imkanları hələ yetərincə deyildi. Belə bir şəraitdə, özünün çox ağır durumuna rəğmən, Osmanlı Türkiyəsi qardaş Azərbaycanın ərazi bütövlüyünü təmin etmək məqsədilə Nuru paşanın komandanlığı ilə hərbi qüvvələrini Azərbaycana göndərdi. Avropa dövlətlərinin türk qoşunlarının Azərbaycana gəlməsinə etiraz etməsinə baxmayaraq, qardaş köməyini əsirgəməyən, ölkəmizi tək qoymayan Osmanlı Türkiyəsi 1918-ci ilin avqust-sentyabr aylarında öz tarixi vəzifəsini şərəflə yerinə yetirdi. Sentyabrın 15-də türklər qarşılarına qoyduqları missiyanı uğurla başa çatdırmaqla, Bakını işğalçılardan təmizləyərək, Azərbaycan dövlətçiliyinə qardaş töhfələrini verdi, Azərbaycan xalqını darda qoymadı.

Qəhrəman türk əsgərlərinin şücaəti və qanı bahasına Bakı və digər rayonların azad olunması ilə Azərbaycan Xalq Cümhuriyyəti hökuməti öz hakimiyyətini ölkənin bütün hüdudlarında təmin etdi. Bununla da, 1918-ci ilin martından başlayaraq erməni daşnaklarının, bolşeviklərin Bakıda və Azərbaycanın digər bölgələrində birgə həyata keçirdikləri qanlı qırğınlara və özbaşınalığa son qoyuldu. Məlum olduğu kimi, ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri soyqırımı siyasətinin əsas məğzi xalqımızı cismən məhv etmək və "böyük Ermənistan" xülyasını gerçəkləşdirmək idi. Amma türk qardaşlığı bu mənfur planın reallaşmasına imkan vermədi. Möhtəşəm və tarixi qələbədən sonra Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin paytaxtı sentyabrın 17-də Gəncə şəhərindən Bakıya köçürüldü. Beləliklə, Azərbaycanda dövlət quruculuğunun əsas mərhələsinə start verildi, bir neçə ay sonra isə parlamentə demokratik qaydalar əsasında seçkilər keçirildi.

Bakının azad olunması həm də türklərin humanistliyini bir daha sübut etdi. Sentyabrın 16-da parad qəbul edərək təntənəli şəkildə şəhərə daxil olan Nuru Paşa Bakıda qalmış rus zabitləri ilə hörmətlə davrandı. O, nəinki Nargində türk hərbi əsirlərinə göstərilən amansızlığa görə onlardan intiqam almağa çalışdı, hətta belə bir mürəkkəb vəziyyətdə onların ailəsinə maddi yardım göstərilməsini təmin etdi. Türk ordusunun Bakını bolşevik-daşnak işğalından azad etməsi şəhərdə əsl bayrama



səbəb oldu. Məşhur milyonçu və xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev türk ordusunun şərəfinə təntənəli ziyafət təşkil etdi. Ziyafət indiki Dövlət Filarmoniyasının binasında keçirildi. H.Z.Tağıyev türk ordusunun komandanı Nuru paşaya və onun qəhrəman sərkərdələrinə hədiyyələr təqdim etdi. Amma Antanta dövlətlərinin Osmanlı Türkiyəsinə təzyiqi getdikcə daha da artırdı. Ona görə də, qısa müddətdən sonra türk qoşunları Bakını tərk etməli oldular. Osmanlı qoşunları Bakının azad olunması üçün həyata keçirdikləri hərbi əməliyyatlarda 1130 şəhid verdilər.

### Tarix unudulmur və dəyişmir

Lakin 71 illik sovet hakimiyyəti dövründə bu hadisə yanlış kontekstdə izah olunub. Lakin bütün yanlışlıqlara baxmayaraq, Azərbaycan xalqı türk əsgərinin qəhrəmanlığını unutmadı, onu qəlbində yaşatdı. Azərbaycan yenidən müstəqillik qazandıqdan sonra hər il sentyabrın 15-də təkcə Bakıda deyil, Şamaxıda, Göyçayda və digər rayonlarda ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olan türk əsgərlərinin məzarları dövlət səviyyəsində ziyarət olunur. Hər il Bakıdakı Şəhidlər Xiyabanında türk əsgərlərinin xatirəsinə ucaldılmış abidənin önündə anma mərasimi keçirilir. Aradan uzun illər keçməsinə baxmayaraq, Qafqaz İslam Ordusu tərəfindən göstərilən qardaşlıq köməyi heç vaxt unudulmayacaq, Azərbaycan xalqı tərəfindən daim minnətdarlıq hissi ilə xatırlanacaq.

Bakı şəhərinin azad edilməsinin 100 illiyinə həsr olunmuş paradda iştirak edən Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan çıxışları zamanı bu tarixi hadisənin iki ölkə arasında qardaşlığın daima möhkəm olduğunu bildiriblər.

Prezident İlham Əliyev çıxışı zamanı bildirib ki, müstəqilliyimizi ilk tanıyan Türkiyə olub: "Bu da bir qardaşlıq nümunəsi idi. Bu gün Türkiyə-Azərbaycan əlaqələri ən yüksək zirvədədir. Məncə, dünyada ikinci belə nümunə yoxdur ki, iki ölkə bir-birinə bu qədər yaxın olsun, bu qədər bir-birinə arxa-dayaq olsun".

### Rəcəb Tayyib Ərdoğan: "1918-ci il sentyabrın 15-də hazırda yaşadığımız ərazilərdə baş verən müharibə, əsla, adi bir hadisə deyil"

Bakının işğaldan azad olunması ilə bağlı keçirilən paradda iştirak edən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış edərək bildirib ki, tarixi unutmaq olmaz: "1918-ci il sentyabrın 15-i də qazanılmış böyük qələbəni kiçik, əhəmiyyətsiz göstərməyə çalışan bəzi qüvvələrin olduğunu bilirik. Buna təşəbbüs göstərənlər o dövrdə aldıqları ağır məğlubiyyətin rüsvayçılığını hələ də unuda bilməyənlərdir...Türkiyə əsgərləri bu gün burada Azərbaycan əsgərləri ilə çiyinçiyinə bundan 100 il əvvəl birlikdə qazanılan böyük qələbənin ildönümünü qeyd edirlər. Bu bayram gələcək nəsillərə ötürəcəyimiz ən böyük ərməğandır. Bir əsr əvvəl bu torpaqlarda minlərlə şəhidimizin qanı ilə yazılan dastanın unudulmasına və unutdurulmasına qətiyyən imkan verməyəcəyik".

Beləliklə, tarixdə bu bağlılığı sübuta yetirən çox hadisələr baş verib. Ancaq 101 il öncə də, Nuru Paşanın Bakıya gəlişi bir daha "bir millət, iki dövlət" cümləsinin mənasını əməli yol ilə nümayiş etdirdi.

***R.KAMALQIZI***

# Azərbaycan BMT-ni erməni təcavüzünə son qoyulması üçün təcili tədbirlər görməyə çağırır

***Beynəlxalq birlik tərəfindən xəbərdarlıq və qınaqlara, habelə Dağlıq Qarabağ münaqişəsinin siyasi yolla nizamlanması üçün səylərin davam etməsinə baxmayaraq, Azərbaycanın işğal olunmuş ərazilərini müstəmləkələrə çevirməyə və ilhaq etməyə yönəlmiş qərəzli hərəkətlər səngimir. Məsələn, işğal edilmiş ərazilərə gəlmə sakinlər yerləşdirilir, həmin ərazilərdəki tarixi və mədəni irs məhv edilir və ya mənimsənilir, istismar və talan edilir, aktivlər, təbii resurslar və digər sərvətlər qanunsuz ticarət obyektlərinə çevrilir. AZƏRTAC xəbər verir ki, Azərbaycanın BMT yanında daimi nümayəndəsi Yaşar Əliyev bu fikirləri sentyabrın 12-də BMT Təhlükəsizlik Şurasının illik məruzəsinə (A/73/2) baxılmasına həsr edilmiş Baş Assambleyanın plenar iclasındakı çıxışında söyləyib.***

Yaşar Əliyev öz çıxışında qeyd edib ki, Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin 24-cü maddəsinin tələblərinə əsasən, Təhlükəsizlik Şurasının illik məruzələrinin Baş Assambleyada müzakirəsi BMT üzvü olan dövlətlərdən ötrü Şuranın işi barədə fikir mübadiləsi aparmaq və xüsusi diqqət tələb edən problemli sahələri üzə çıxarmaq üçün mühüm platformadır. Təhlükəsizlik Şurası öz funksiyalarını yerinə yetirərkən BMT-nin üzvü olan bütün dövlətlərin adından hərəkət edir. Buna görə də BMT-nin daha geniş auditoriyaya eşidilmək imkanları verilməlidir. Y.Əliyev bəyan edib ki, Azərbaycan bu baxımdan bəzi hadisələri müsbət qiymətləndirir, Təhlükəsizlik Şurasının transparentlik səviyyəsinin, üzv dövlətlərin daha geniş auditoriyası ilə onun qarşılıqlı fəaliyyəti üçün səylərin artırılacağına ümid edir.

Azərbaycanlı diplomat bildirib ki, dünya birliyinin sülhə və təhlükəsizliyə təhdidlərlə üzləşdiyi indiki vaxtda beynəlxalq hüquq qaydalarının möhkəmləndirilməsi və bütün səviyyələrdə səylərin ikiqat artırılması tələb olunur. Bunun üçün beynəlxalq hüququn hamılıqla qəbul edilmiş, dövlətlərarası münasibətləri tənzimləyən norma və prinsiplərinə ciddi riayət edilməlidir. Təhlükəsizlik Şurasının fəaliyyətinin səmərəli olması üçün ilk növbədə onun qərarlarının yerinə yetirilməsi tələb olunur. Bu baxımdan, üzv dövlətlərin öhdəlikləri BMT Nizamnaməsinin 25-ci maddəsində dəqiq şərh edilib. Y.Əliyev vurğulayıb ki, Təhlükəsizlik Şurasının qətnamələrinə baxmayaraq suveren dövlətlərə qarşı qanunsuz güc tətbiq etmək və bununla əlaqədar ərazilər əldə olunması halları davam edir. Lakin bu heç də o demək deyildir ki, belə vəziyyət Şuranın fəaliyyətində məqbul praktika sayıla bilər.

Məlum olduğu kimi, BMT Təhlükəsizlik Şurası 1993-cü ildə yekdilliklə qəbul edilmiş 822, 853, 874 və 884 nömrəli qətnamələrində Azərbaycana qarşı güc tətbiq edilməsini, onun ərazilərinin işğal olunmasını, mülki şəxslərə hücumlar edilməsini, Azərbaycanda yaşayış məntəqələrinin bombalanmasını pisləyib, Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə, onun beynəlxalq sərhədlərinin toxunulmazlığına hörmət bəslədiyini, ərazilər ələ keçirilməsi üçün güc tətbiq etməyin yolverilməz olduğunu bir daha təsdiqləyib. Bu qətnamələrdə Təhlükəsizlik Şurası Ermənistanın ərazi iddialarına və zorakı hərəkətlərinə cavab olaraq Dağlıq Qarabağın Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olmasını təsdiq edib, bütün işğalçı qüvvələrin Azərbaycanın işğal edilmiş bütün ərazilərindən dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılmasını tələb edib. Təhlükəsizlik Şurasının dörd qətnaməsi, habelə Şuranın sədrinin yeddi bəyanatı məhz Ermənistan tərəfindən Azərbaycana qarşı silahlı təcavüzün və Azərbaycan ərazilərinin işğal edilməsinin nəticəsi



olub. Bu qətnamələrdə törədilmiş əməllər, bunun nəticəsində yaranmış qeyri-qanuni vəziyyətə son qoyulması üçün öhdəliklərin və vəzifələrin yerinə yetirilməməsi vurğulanır. Ermənistanın hərəkətləri qanunsuz güc tətbiq edilməsi kimi təsnif olunur və onun Azərbaycan ərazilərinə iddiaları tamamilə əsassız hesab edilib. Digər beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş çoxsaylı qərarlar və sənədlər də eyni kontekstdə tərtib olunub.

Məsələn, münaqişənin nizamlanmasına və bu məqsədlə aparılan danışıqlara kömək etmək tapşırılmış ATƏT-in Minsk qrupu Azərbaycan ərazilərinin tutulması və işğalı ilə əlaqədar öz bəyanatında göstərir ki, güc tətbiq edilməklə hər hansı şəkildə ərazilər əldə edilməsi tanına bilməz və ərazinin işğal olunması beynəlxalq aləmdə tanınmaq və ya hüquqi statusun dəyişdirilməsi üçün istifadə edilə bilməz. Azərbaycanın BMT yanında daimi nümayəndəliyinin rəhbəri vurğulayıb ki, Təhlükəsizlik Şurasının əsas tələbləri indiyə qədər yerinə yetirilməyib və bunun bilavasitə nəticəsi kimi həll edilməmiş münaqişə, onun hərbi və humanitar nəticələri sülhü, təhlükəsizliyi və inkişafı təhdid altında saxlamağa davam edir.

Bu fonda Ermənistanın həmin qətnamələrin aktuallığını azaltmaq, onların məqsədini və məzmununu təhrif etmək cəhdləri müşahidə olunur. Ermənistan münaqişənin nizamlanması prosesinə daim əngəl törədir, mütəmadi olaraq yerlərdə vəziyyəti gərginləşdirməyə və mövcud status-kvonun möhkəmlənməsinə yönəlmiş müxtəlif provokasiyalara əl atır. Bu yaxınlarda baş vermiş bəzi hadisələri xatırlamaq kifayətdir.

Keçən ay Ermənistan mənim ölkəmin suveren ərazisi olan Dağlıq Qarabağ bölgəsini ən yüksək səviyyədə Ermənistanın tərkib hissəsi elan edib və beləliklə, Azərbaycanın işğal edilmiş rayonlarını ilhaq etmək planlarını açıqlayıb. Bu, beynəlxalq hüququn və Təhlükəsizlik Şurasının qətnamələrinin kobud şəkildə pozulmasıdır. Bu qətnamədən əvvəl Ermənistan hökumətinin müxtəlif yüksəkvəzifəli üzvləri başqa təhrikçi bəyanatlar səsləndiriblər. Məsələn, Azərbaycana "bircə qarış da olsa torpağın qaytarılmayacağı" barədə bəyanatlar və "yeni ərazilər uğrunda yeni müharibə" barədə hədələr eşidilir.

Ermənistanın Azərbaycanın beynəlxalq aləmdə tanınmış ərazisi olan Dağlıq Qarabağı və digər işğal edilmiş rayonları müxtəlif uydurma adlar altında təqdim etmək, habelə həmin ərazilərdə qurulmuş qeyri-qanuni oyuncaq rejimi təbliğ və reklam etmək cəhdlərinin də qanuni qüvvəsi yoxdur. Azərbaycanlı diplomat bildirib ki, bu rejimin qeyri-qanuni olması beynəlxalq səviyyədə dəfələrlə bəyan edilib; Yerevan tərəfindən rəhbərlik və nəzarət edilən bu rejim, nəticə etibarilə təcavüzün, irqi ayrı-seçkiliyin və etnik təmizləmənin məhsulundan başqa heç bir şey deyil.

Yuxarıda deyilənlər BMT və daha geniş beynəlxalq birlik tərəfindən təcili tədbirlər görülməsinin zəruri olduğunu təsdiq edir. Y.Əliyev bildirib ki, Azərbaycan ona qarşı davam edən təcavüzlə əlaqədar problemləri daim Təhlükəsizlik Şurasının nəzərinə çatdırır və Azərbaycanın təqdim etdiyi, hesabat dövründə Təhlükəsizlik Şurasının və Baş Assambleyanın sənədləri qismində yayılmış məlumatlar Təhlükəsizlik Şurasının müzakirə edilən məruzəsinin V hissəsinin 4-cü fəslində xatırlanır.

Azərbaycanın BMT yanında diplomatik missiyasının rəhbərinin dediyi kimi, bununla əlaqədar xatırlatmaq yerinə düşər ki, ümumi beynəlxalq hüququn imperativ normaları üzrə öhdəliklərin ciddi pozulmaları əlavə nəticələr doğurur. Buraya, o cümlədən, ciddi pozuntu nəticəsində yaranmış vəziyyətə son qoyulması məqsədilə bu vəziyyətin qanuni hesab edilməməsi, onun davam etməsinə kömək və ya yardım göstərilməməsi yolu ilə dövlətlərin əməkdaşlıq etmək vəzifələri daxildir. Buna görə də beynəlxalq birlik təkidlə tələb etməlidir ki, Təhlükəsizlik Şurasının 1993-cü il 822, 853, 874 və 884 nömrəli qətnamələri yerinə yetirilsin və Ermənistan öz beynəlxalq öhdəliklərinə ciddi riayət etsin.

Mandatı Təhlükəsizlik Şurasının qətnamələrinə əsaslanan, davam etməkdə olan sülh prosesinin əsas məqsədi işğalçı qüvvələrin Azərbaycanın işğal altında olan bütün ərazilərindən dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılmasını, Azərbaycanın beynəlxalq aləmdə tanınmış sərhədləri daxilində suverenliyinin və ərazi bütövlüyünün bərpa olunmasını, məcburi köçkünlərin və onların əmlakının qaytarılmasını təmin etməkdən ibarətdir.

Y.Əliyev çıxışının sonunda bildirib ki, bu hədəfə çatmaq zəruri, lakin kompromissiz qərardır. Bu, eyni dərəcədə labüd və aktualdır, çünki qanunsuz güc tətbiq edilməsi və bununla əlaqədar hərbi işğal və Azərbaycan ərazilərinin etnik təmizlənməsi heç vaxt sülh, barışıq və sabitlik gətirməyəcək.

## Vadim Pristayko: "Azərbaycanla strateji tərəfdaşlıq inkişaf etdiriləcək"

Azərbaycanın Ukraynadakı səfiri Azər Xudiyev bu ölkənin yeni Xarici İşlər naziri Vadim Pristayko ilə görüşüb. AZƏRTAC xəbər verir ki, görüş zamanı tərəflər iki ölkə arasında siyasi və iqtisadi əlaqələrin inkişafından məmnunluqlarını ifadə ediblər. Qeyd olunub ki, hər iki ölkənin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığı və qarşılıqlı dəstəyi vacibdir. Nazir bildirib ki, Azərbaycanla strateji tərəfdaşlıq bundan sonra da inkişaf etdiriləcək. Görüşün sonunda səfir Azər Xudiyev V.Pristaykoya oktyabrın 25-26-da keçiriləcək Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Bakı Zirvə Görüşünə rəsmi dəvəti təqdim edib. Nazir rəsmi dəvətə görə Azərbaycan tərəfinə təşəkkürünü bildirib.



# YAP Samux rayon təşkilatında tələbələrlə görüş keçirilib



***Dünən YAP Samux rayon təşkilatında ali məktəblərə qəbul olunmuş tələbələrlə görüş keçirilib.***

Tədbiri YAP Samux rayon təşkilatının sədri Gündüz Bayramov açaraq, təhsilin inkişafına göstərilən dövlət qayğısından, bu sahədə əldə edilən uğurlardan danışıb. Bildirib ki, təhsilin inkişafı ölkəmizdə daim diqqət mərkəzində saxlanılır: "Tədris müəssisələrinin maddi-texniki bazası möhkəmləndirilir, yeni məktəb binaları inşa edilir, mövcud məktəb binaları təmir olunur və ya yenidən qurulur. Respublikamızın digər bölgələrində olduğu kimi, Samux rayonunda da təhsilin inkişafı istiqamətində mühüm işlər görülür. Təhsilə göstərilən xüsusi diqqət və qayğının nəticəsidir ki, rayon üzrə ali məktəblərə daxil olanların sayı ildən-ilə artır. Bu isə bir daha ölkəmizdə təhsilə göstərilən qayğının reallığıdır".

Görüşdə Samux rayon icra hakimiyyəti başçısının müavini, ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Kəmalə Xəlilova çıxış edərək vurğulayıb ki, xalqımızın Ümummilli Lideri Heydər Əliyev bütün fəaliyyəti dövründə təhsilə çox böyük önəm vermişdir: "Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan təhsil siyasəti Möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə bu gün uğurla davam etdirilir. Samux rayonunda bu il attestat alan məzunların sayı 434 nəfər olmuş, ali məktəbə sənəd verən məzunların sayı 304 nəfər olmuşdur. Onlardan 171 nəfəri ali məktəblərə qəbul olunmuşdur. Ali məktəbə qəbul olunanlardan 500-dən yuxarı bal toplayan 22 nəfər, 600-dən yuxarı bal toplayan 2 nəfər olmuşdur. Ali məktəbə qəbul imtahanlarında iştirak edənlərdən xeyli gənc keçid balı toplayaraq, orta ixtisas məktəblərinə qəbul olunmuşlar. Rayonun əksər məktəblərinin şagirdlərinin ali və orta ixtisas məktəblərinə qəbul olmuşlar".

Tədbirdə rayon təhsil şöbəsinin müdiri Gülağa Hüseynov, Qarayeri 1 saylı məktəb - liseyin direktoru Bəsti Mahmudova, 2 saylı Samux şəhər tam orta məktəbin direktoru Əminə Cəfərova, tələbə adını qazanmış məzunlar - İlham İsayev, Leyla Qurbanova, Həbibə Qarayeva, Leyla Camalzadə, Əfsanə Əliyeva çıxış edərək bütün bu uğurları qazanmaqda təhsilin ən böyük qayğıkeşi ölkə Prezidenti İlham Əliyevə və ölkənin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya minnətdar olduqlarını bildiriblər.

Sonda YAP Samux rayon təşkilatının sədri tərəfindən uğurlu nəticələr əldə etmiş tələbələrə qiymətli hədiyyələr təqdim edilib.

***R.HÜSEYNOVA***

# YAP Ağstafa rayon təşkilatında seminar-müşavirə keçirilib

***Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatının tövsiyə və tapşırığına uyğun olaraq, YAP Ağstafa rayon təşkilatının qərargahında ərazi ilk partiya təşkilatı sədrlərinin iştirakı ilə seminar-müşavirə keçirilib.***



Seminarı giriş sözü ilə YAP Ağstafa rayon təşkilatının sədri Ramiz Tatarov açaraq qeyd edib ki, mövcud ictimai-siyasi vəziyyət, real faktlar, onu deməyə əsas verir ki, son 26 ildə müxalifətin ciddi bir iş görməməsinin səbəbi aralarındakı münasibətlərin qeyri-səmimi qurulmasıdır: "Bu qaragüruhun istəyinə nail olması, qətiyyən mümkün deyil. Belə olan halda, xalqın müxalifətə dəstəyindən söhbət gedə bilməz. Ölkəmiz hansısa istiqamətdə irəliləyişə nail olan kimi daxildəki müxalifət "aslan"ları ilə xaricdəki "müstəqil bloger"lər və "siyasi fəallar" səs-səsə verirlər. İllər, hadisələr, şərtlər və proseslər dəyişir, amma bu adamların lüğətləri, tələbləri və istəkləri dəyişmir. Əfsuslar olsun ki, konstruktivlikdən çox uzaq müxalifətin "lider"i olduqlarını iddia edən şəxslərin bəyanatlarında, çıxışlarında, açıqlamalarında və müsahibələrində aqressiya azalmır". Seminarda, həmçinin, bir sıra məsələlər müzakirə edilib və müvafiq qərarlar qəbul olunub.



***R.HÜSEYNOVA***



**Təhmasib Novruzov**

## Yeni dərs ili - yeni düşüncə

Yeni dərs ili başlayır. Bilmirəm nədəndir, amma yeni dərs ilinin başlanması həmişə digər əlamətdar günlərlə müqayisədə daha təmtəraqlı və daha yüksək əhval-ruhiyyə ilə qeyd olunur. Hətta ilin, fəsillərin dəyişməsindən də böyük coşqu ilə qeyd olunan bu gün hər bir evdə, hər bir ailədə xoş əhval-ruhiyyə yaradır. Zənnimcə, bu, təsadüfi deyil və kimlərinsə təbliğatı ilə formalaşmayıb. Hər kəs, cəmiyyətdəki mövqeyindən, siyasi baxışından, asılı olmayaraq, özünün və ümumən, cəmiyyətin gələcəyi olan yeni nəslin yetkin şəxsiyyət kimi formalaşmasını həyatının ən önəmli vəzifəsi hesab edir və buna görə də təhsilə, maariflənməyə bu qədər həssas yanaşır. İslama görə insanlara bilik verməkdən qədər Allah qatında xoş qarşılanan heç bir əməl yoxdur. Dünyanın ən sayılıb-seçilən dahi şəxsiyyətləri də oxumağa, elmi biliklər almağa, mənəviyyatını saflaşdıran təlim-tərbiyə ilə əhatə olunmağa insanlığın ən mühüm vəzifəsi kimi qiymət vermişlər. Bir sözlə, təhsil, maariflənmə, elmlə silahlanma bəşəriyyətin və onun bir hissəsi olan hər bir cəmiyyətin sabahının nuru deməkdir. Beləliklə, biz məktəblərin mövsümə başlamasını, təhsilin tətildən dönüb yenidən qəlblərə nur çiləməsini ona görə bu qədər coşqu ilə qeyd edirik. Ancaq təhsilimiz bəzən lazımi səviyyədə olmayanda, sadəcə, elmi bilikləri öyrədilməklə kifayətlənəndə, yetişən nəslin mənəvi dəyərlərə, milli ideologiyaya, həm də bəşəri düşüncəyə malik bir şəxsiyyət kimi formalaşmasına lazımınca diqqət yetirilməyəndə, onun cəmiyyətə gətirdiyi fəsadlar məyusluq yaradır. Odur ki, yeni dərs ili ərəfəsində təhsil işçilərimizə yeni təlim-tərbiyə formasına üstünlük verməyi arzulayır və tövsiyə edirəm. Nəyi nəzərdə tuturam? İndi deyim, siz də bilin. Söz yox, Mübariz İbrahimli kimi saysız-hesabsız, VƏTƏN AŞİQLƏRini, məhz bizim təhsil işçilərimiz yetişdirib. Bu gün dünyanın müxtəlif qütblərində Azərbaycanımızın adını elmlə, idmanla, incəsənətlə və digər sahələrdəki fəaliyyətləri ilə yüksəklərə qaldıran minlərlə yeni nəsil nümayəndələrini də müstəqil Azərbaycanın təhsil işçiləri tərbiyə edib və edir. Varlıqları ilə fəxr etdiyimiz bu gənclərin həm özləri, həm də adına VƏTƏN dediyimiz AZƏRBAYCAN üçün qazandıqları uğurlara görə, ilk növbədə, təhsil aldığı müqəddəs ocağa minnətdar olmalıyıq. Fəqət, belə gənclərlə yanaşı, bu gün kimlərinsə təsiri altına düşüb, kimlərinsə (əslində, düşmənlərin) maraqlarını, həm də öz şəxsi maraqlarını önə çəkib ölkəsinə, ölkəsinin sayılıb-seçilən şəxsiyyətlərinə qarşı piyar kampaniyasına qoşulan gənclər də yox deyil. Bəs gənclərimizin arasında belələrinin olmasının günahını kimdə və ya kimlərdə axtarmalıyıq? Əli Kərimli, Cəmil Həsənli və onlara bənzər siyasət oyunbazlarının pafoslu danışıqlarının təsiri altına bəzi gənclərimiz necə olur ki, düşə bilirlər? Xeyr, kimlərinsə düşündüyünün əksinə olaraq, mən məktəbi siyasətdən uzaq hesab etmirəm və düşünürəm ki, haqlıyam. Məktəb bütün sahələrin, o cümlədən, siyasət aləminin sintezi ilə daha dolğun, daha məqsədyönlü tərbiyəyə nail ola bilər və olmalıdır. Ən azı, belə fəaliyyətin siyasətlə, siyasi düşüncə ilə heç bir əlaqəsi olmadığı yeni nəslə, məhz məktəb yaşlarından aşılanmalıdır. "Olmazlar" seriyasının xüsusi proqramı olmalı, olmazlar arasında Vətəninə, xalqına və dövlətinə qarşı fəaliyyətin sonda Vətənsizləşməyə aparıb çıxardığı gənclərə, məhz məktəbli yaşlarında təlqin olunmalıdır. Bunun üçün müasir dövrün texniki imkanlarından, ölkəmizin tanınmış ziyalılarından məqsədyönlü şəkildə və hərtərəfli istifadə olunmalıdır. Məktəb təkcə elm, bilik verən qurum kimi qəbul edilməli deyil, o, ilk növbədə, cəmiyyət üçün gərəkli vətəndaşlar yetişdirməlidir. İkinci olmayanda, birincidən qazandıqları bu millətə, bu dövlətə deyil, yadlara, hətta bəzi hallarda, bilərəkdən ya bilməyərəkdən düşmənlərə xidmət göstərəcək (necə ki, radikal müxalifət adı altında bu gün belə fəaliyyətin şahidi oluruq). Belədə, biz dolayısı ilə düşmənlərə kadr hazırlamış olmuruqmu? Məncə, üzərində düşünməyə dəyən ciddi sualdır! Böyük Mirzə Cəlilin "Ölülər" tragikomediyasında Kefli İskəndərin bir cümləsini təhsil müəssisələrimiz hər zaman yadda saxlamalıdırlar: "Hami deyir: oxu, alim ol. Bir deyən yoxdu ki, oxu, adam ol!". Məktəblərimiz alim də hazırlamalıdı, müəllim də, həkim də, neftçi də, inşaatçı da, siyasətçi də. Amma hamısından öncə, "adam", yəni sinəsində VƏTƏN DAŞI gəzdirən VƏTƏNDAŞ hazırlanmalıdır. Bu qədər. Yeni dərs iliniz mübarək, əziz müəllimlər, tələbələr və şagirdlər!

# YAP Kürdəmir rayon təşkilatında ərazi ilk partiya təşkilatı sədrlərinin yığıncağı keçirilib



*Dünən YAP Kürdəmir rayon təşkilatının qərargahında ərazi ilk partiya təşkilatının sədrlərinin iştirakı ilə yığıncaq keçirilib. Görüşdə YAP Kürdəmir rayon təşkilatının sədri Ağali Kərimli Baş nazirin müavini, YAP-ın Sədr müavini, İcra katibi Əli Əhmədovun partiyanın rayon və şəhər təşkilatlarının sədrləri ilə keçirdiyi müşavirədə qaldırılan məsələləri diqqətə çatdırıb.*

A.Kərimli, qarşıdan gələn növbəti bələdiyyə seçkilərinə toxunaraq, hazırlıq işlərinin yüksək səviyyədə qurulacağını, YAP Kürdəmir rayon təşkilatının inzibati binasında seçki qərargahının yaradılacağını və bu işlərdə ilk partiya təşkilatlarının səfərbər olunmalarının vacibliyini qeyd edib. O, seçki məntəqələrində məşvərətçi və müşahidəçilərin seçilmələri istiqamətində işlərə başlanıldığını bildirib. Namizədlərin müəyyən olunmasında partiya sıralarında xüsusi fəallıq göstərən gənclərə və qadınlara üstünlük veriləcəyini vurğulayıb, ərazi ilk partiya təşkilatlarının fəaliyyətindən bəhs edib. Onların tərkibi, uçot-dəqiqləşdirmə, təbliğat-təşviqat işlərinin aparılması və s. istiqamətlərdə işlərin bundan sonra da uğurla və səmərəli şəkildə davam etdirilməsini qeyd edib. A.Kərimli hamını daha fəal olmağa, ölkəmizin ictimai-siyasi proseslərində ayıq-sayıq olmağa çağırıb. Bildirib ki, dövlət başçısının ətrafında daha da sıx birləşməli, ölkəmizin uğurlarını və inkişafını gözü götürməyən qüvvələrə qarşı daim mübariz olmalı. Bu baxımdan, ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin siyasi fəaliyyətini, təbliğatını həyata keçirən siyasi partiya olaraq, YAP-ın və onun ərazi ilk partiya təşkiatlarının üzərinə böyük məsuliyyət düşür.

A.Kərimli çıxışında müxalifətin sosial şəbəkələrdə dövlətə qarşı böhtan yazılara tutarlı cavablar verməyi də qeyd edib və bütün üzvlərin bu təbliğat işlərinə qoşulmalarının vacibliyini vurğulayıb.

***Rəfiqə KAMALQIZI***

## Bakı Beynəlxalq Avtovağzal Kompleksi və Nəqliyyat Qovşağı gücləndirilmiş iş rejimində fəaliyyət göstərir

Dərs ilinin başlaması ilə əlaqədar Bakı Beynəlxalq Avtovağzal Kompleksi (BBAK), xüsusilə də Nəqliyyat Qovşağı gücləndirilmiş iş rejimində fəaliyyət göstərir. BBAK-dan AZƏRTAC-a bildirilib ki, Nəqliyyat Qovşağı nəqliyyat vasitələrinin ümumi gəliş nöqtəsidir və yay fəslinin sona çatması, yeni dərs ilinin başlaması ilə əlaqədar regionlardan paytaxta səfər edənlərin sayı üstünlük təşkil edir. Gəncə, Mingəçevir, Quba, Qusar, Xaçmaz, Bərdə və Tərtər istiqamətlərindən paytaxta gələnlərin sayı daha çoxdur. Nəqliyyat Qovşağında gələn sərnişinlərin rahatlığının təmin olunması məqsədilə nəzarət gücləndirilib.

Həm beynəlxalq, həm də şəhərlərarası istiqamətlərdən gələn sərnişinlər burada tam rahat şəkildə şəhər nəqliyyatından, taksi xidmətindən, eyni zamanda, yaxınlarını qarşılamaq üçün gələnlər burada parkinq xidmətindən istifadə edə bilərlər. Nəqliyyat Qovşağında rahat hərəkəti təmin etmək məqsədilə ərazidə istiqamətləndirici nişanların quraşdırılması işi də artıq yekunlaşıb. Hazırda şəhərlərarası istiqamətlərə səfər edənlərin sayında azalma müşahidə olunur. Belə ki, gün ərzində şəhərlərarası və beynəlxalq istiqamətlərə səfər edənlərin sayı 7-8 min arasında dəyişir. Sentyabrın ilk 10 günü ərzində ümumilikdə 85 min 402 sərnişin Bakı Beynəlxalq Avtovağzal Kompleksindən istifadə edib. Onlardan 75 min 204 sərnişin şəhərlərarası, 10 min 198 sərnişin isə beynəlxalq reyslərlə səfərini təmin edib.

## Yeni dərs ili ilə əlaqədar dəmir yolunda gücləndirilmiş iş rejimi tətbiq olunub

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin kollektivi Yeni dərs ilinin başlanması ilə əlaqədar gücləndirilmiş iş rejimində çalışır. QSC-nin Mətbuat katibliyi şöbəsindən AZƏRTAC-a bildirilib ki, bu günlərdə dəmir yolunun xidmətlərindən istifadə etmək istəyənlərin sayı artdığından, ölkə daxilində hərəkət edən sərnişin qatarlarına hər gün tələbata uyğun olaraq əlavə vaqonların qoşulması təmin olunur.

Eyni zamanda, sentyabrın 16-dan etibarən Bakı-Sumqayıt-Bakı elektrik qatarlarının hərəkət cədvəlinə dəyişiklik edilir. Yeni hərəkət cədvəlinə əsasən Bakı-Sumqayıt-Bakı marşrutu ilə işləyən elektrik qatarlarının dövriyyəsi artırılır. Gün ərzində bu marşrutla 15 cüt elektrik qatarı hərəkətdə olacaq. Eləcə də, sosial sifarişlər nəzərə alınaraq, birinci növbədə oxuyan tələbələrin dərsdən sonra daşınması üçün saat 15:00-a da qatar təyin olunur. Bir daha sərnişinlərin nəzərinə çatdırılır ki, sərnişin qatarlarına bilet satışı 10 gün qabaqcadan, əlavə vaqonlara isə bilet satışı həmin vaqonlar qatara qoşulan gün həyata keçirilir.



## Qrantlar qurbanı... yazıqlar sizə!

**RƏFİQƏ**

***Yazıqlar sizə, elədiyinizin bəlasını çəkəsiniz, çənəniz yerindən çıxsın. Deyəcəksiniz, bu nə qarğışdır edirsən? Edərəm də! Düz 26 ildir ki, ağzın yükünü daşıyan, dayanmaq bilməyən o çənə nə qədər böhtan və şər deyər. Çənəniz yerindən çıxsın, bəlkə sizin kimi parazitlərin iyrənc əməllərini eşitməzdik. Nə qədər boş-boş hay-küy salmaq olar? Nə qədər həyasızcasına utanmadan kütləvi aksiyalar keçirməklə, çənəyə güc vermək olar. Ancaq bir gün o çənəniz də yerindən çıxacaq. Bununla bərabər, bəd əməlləriniz də ortaya çıxdıqca, o zaman zəlil və rəzil olacaqsınız. Sizin kimi parazitlər nə abır bilir, nə əxlaq.***

Bir də dağıdıcı düşərgənin əxlaqsızlıq və mənəviyyatsızlıq "markası" olan Əli Kərimli kimi cinayətkardan nə abır gözləmək olar? Soruşmaq lazımdır, ay boş bardağı dolu çanağa vuran satqın Əli Kərimli, hansı kütlə ilə mitinq keçirmək istəyirsən? Yazıqlar olsun... Sən, o Əli Kərimlisən ki, ayağın dəyən yer puç olur, dağılır. İndi də, iqtidarla müxalifətin dialoqundan sonra başlamısan sosial şəbəkələrdə mitinq çağırışları etməyə: "Mütləq mitinq keçirmək lazımdır, yoxsa ölkədə gərgin vəziyyət yaranacaq". Abırsızlıq, həyasızlıq budur. Ə.Kərimli, sən kimsən ki, ölkəni düzəldəsən? Hələ bu günə kimi, həm təşkilatlarınız, həm ideyalarınız, fikirləriniz, məramlarınız da pərakəndədir və elə zənn edirsən ki, çənəyə güc verməyin bir xeyri olacaq? Ay bədbəxt Əli və sənin yanında olan özün kimi dələduz cinayətkarlar yığını, 26 ildir ki, çənəyə güc verirsiniz, bir xeyri olub ki...

26 ildir ki, bu çirkin əməllərinizlə yol gedirsiniz, nə əldə etmisiniz? Nifrət, lənət!.. Ə.Kərimliyə bundan da ağır sözlər yaraşır. Ancaq bununla iş bitmir. Ə.Kərimli bir reallığı da unutmamalıdır ki, o öz abırına hakim olmasa da, Azərbaycan qanunları öz göstərişlərinə hakimdir və əsla, hansısa siyasi qüvvə üçün xüsusi ayrıcalıqlar tətbiq etməyib. Hər bir siyasi qüvvənin mövcudluğuna da, fəaliyyətinə də bərabər təminatlar yaradıb. Bundan sonra da həmin rentabelliyi qoruyub-saxlayacaq. Amma bugünkü dağıdıcı müxalifət "babam mənə kor dedi, gəlib-gedəni vur dedi" kəlamına arxayın olduğu kimi, hansı oyunlar çıxardıb, həmin qanunlar üzərində hansı təhrifləri etmək üçün çənəsinə güc verəcəksə, bax, bu, artıq tam başqa bir söhbətin mövzusudur. Belə bir deyim var: rəqəmlərin dili hərdən nəsə deyir. Belə olmasaydı, dağıdıcı düşərgənin qrantlara hər şeyini satan AXCP sədri Ə.Kərimli "kor tutduğunu buraxmadığı" kimi, 2019-cu ildə 19 rəqəmini buraxmır ki, buraxmır. Öz "feyzbuk"unda yazır ki, "fala baxaraq, nədənsə bu rəqəmin düşərli olması qənaətinə gəldim".

Məşhur filosof Konfutsinin bir fikri yadıma düşdü: "Quyu dərin deyil, ip qısadır". Bax, bədbəxtçilik odur ki, 26 ildən bəri Ə.Kərimli, X.İsmayıl, İ.Qəmbər, A.Hacılı, L.Yunus və bu kimi parazitlər həmişə idarə olunan olublar, sonda da başqasının ipiylə quyuya enməyə çalışsalar da, yarı yolda qalıblar. Çünki mənəviyyatlarını çirkin oyunlara - qrantlara qurban verərək, satılanlardır. Bu parazitlər cəmiyyətdə istəklərinə nail ola bilməyiblər və bundan sonra da nail ola bilməyəcəklər. Çünki bu gün xalq-dövlət birliyinin sasılmazlığı dövlətin də real olaraq suveren və müstəqil olmasını təmin edir. Əgər dağıdıcı təfəkkürlərini hadisələrə adekvat düşüncə istiqamətində dəyişməsələr, xalq özü bu dəfə onları birdəfəlik siyasətin uçurumundan üzüaşağı yuvarlayacaq. Qısa iplə dərin quyuya enməyə macal belə tapmayacaqlar! Nə Sorosun milyardları, nə Göbbelsin təbliğat maşını kimi gecə-gündüz dezinformasiya üyüdən "Turan TV"-nin hay-küyü, nə bomba quraşdırılmış qum saatlarının əcəl zəngi, nə də and-aman onları xilas edə biləcək. O zaman, doğrudan da, YAZIQLAR OLSUN!...

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

14 sentyabr 2019-cu il

# O öz sonunu yaxınlaşdırdı

## *“Armenianreport”: “Baxışların sürətli qütbləşməsi gedir, hakimiyyətə inamsızlıq artır, “məxməri inqilab”ın nəticələri təəssüf doğurur”*

***“Yeni hakimiyyət Qərblə deyil, Rusiya ilə münasibətlərini yaxşılaşdırmaq məsələsində, nədənsə, əvvəlki hakimiyyətlə rəqabət aparmaq qərarına gəlib. O hakimiyyət ki, xalqda sonsuz inam qazanmışdı, indi onu itirmək üzrədir”. Bu barədə “armenianreport” portalının analitik bölməsində gedən məqalədə qeyd olunub.***

Yazıda Amsular probleminə toxunularaq bildirilir ki, hara fırladılarsa da, Amsular məsələsi artıq Ermənistanın siyasi həyatında böyük rol oynayıb.

“Baxışların sürətli qütbləşməsi gedir, hakimiyyətə inamsızlıq artır, “məxməri inqilab”ın nəticələri təəssüf doğurur” deyə yazılan analitik yazıda bildirilir ki, bütün bunlar əvvəlki hakimiyyətin devrilməsindən sonra spektiklər tərəfindən proqnozlaşdırılırdı. SİTAT: “Optimistlər iddia edirdilər ki, spektiklər yanılırlar. Lakin bəlli oldu ki, yanılanlar elə onların özləridir. Aydın olurdu ki, uzun illər yaradılan və möhkəmləndirilən sistemin əksfəaliyyəti güclü olacaq. O da məlum idi ki, bütün bu illər ərzində, ölkəni idarə etmiş keçmiş sistemin əlində əvvəlki kimi nəhəng maliyyə resursları, eləcə də, media və istənilən rolu oynaya biləcək qədər bütöv bir kütlə qalır ki, mövcud hakimiyyətin tənqidindən tutmuş digər addımlara getməyə hazırdır. Ehtiyat olunurdu ki, həmin sistem əlində olan bütün vasitələrdən istifadə edərək, elə birinci fürsətdəcə spekulyasiyalara başlayıb ictimai rəydə ən böyük rezonans yaradacaq. Bunun baş verməməsi üçün yeni hakimiyyətdən tələb olunurdu ki, nəhəng iqtisadi islahatları həyata keçirsin, lakin bu baş vermədi. Biz yalnız xoş məqsədlər ifadə edən söz yığnağını eşitdik, başqa heç nə...”

Məqalədən də görünür ki, artıq erməni ictimai rəyində, eyni zamanda, mediasında bu kimi təəssüflərlə bol olan yazılar, şərhlər, düşüncə və rəylər verilməkdədir. Bütün bunlar isə əbəs deyil. Nikol Paşinyanın reytinqi düşməkdə, Ermənistan isə iflas və süqut dərəsinə doğru sürətlə yuvarlanmaqda davam edir.



**“Putin Rusiyası Azərbaycanla əməkdaşlığını artırır”**

Bütün bunlarla yanaşı, sözügedən analitik təhlildə erməni müəllif digər məsələlərə də toxunub və sərt tənqidlərini davam etdirib. SİTAT: “Bütün bunlar baş verərkən, xarici siyasət arenasında da kütləvi uğursuzluqlar yaşandı, xüsusilə, Qərblə münasibətlər məsələsində. Bununla yanaşı, bizə hər zaman Rusiya ilə “parlaq” münasibətlər barədə danışırdılar. Hansı ki, fəaliyyətində tamamilə başqa gözləntilər gözlənilən yeni hakimiyyət Qərblə deyil, Rusiya ilə münasibətlərini yaxşılaşdırmaq məsələsində, nədənsə, əvvəlki hakimiyyətlə rəqabət aparmaq qərarına gəlib. Bu, klassik “rus ruleti” idi”. Onun nəticələri proqnozlaşdırılmışdı”.

Daha bir maraqlı məqam erməni analitikinin Rusiyanın Azərbaycanla münasibətlərini möhkəmləndirməsi məsələsinə toxunmasıdır. “Putin Rusiyası Azərbaycanla əməkdaşlığını artırır, hər imkanda Mariya Zaxarovanın, ya da digər rəsmilərin vasitəsi ilə Bakının ünvanına komplimentlər edilir”, deyə qeyd edilən yazıda o da bildirilir ki, sanki Kreml Azərbaycanın onlar üçün dünyanın neft-qaz bazarlarında rəqibi olduğunu anlamır, hansı ki, onunla başqa tonda danışmaq lazımdır”. Yəni buradan da görünür ki, ermənilər Rusiyanın onlardan üz döndərdiyini yaxşı anlayırlar və indi də sırf erməni məkrindən çıxış edərək, Rusiyaya eyham vururlar ki, Azərbaycan yuxarıda qeyd edilən bazarlarda onun rəqibidir və Azərbaycanla sərt tonda danışmalıdır. Lakin fakt budur ki, Azərbaycanla heç bir qüvvə sərt tonda danışa bilməz və Rusiya tərəfi də yaxşı anlayır ki, ölkəmiz onlar üçün istər strateji, istər iqtisadi, istərsə də hərbi baxımdan əməkdaşlıq məsələsində önəm kəsb edir. Məhz erməniləri qorxudan amillərdən biri də budur.

**Köhnə sistemin bütün nümayəndələri fəallaşıblar, hansı ki, məğlub olmayıblar və revanşa susayıblar**

Sözügedən məqalədə Kremlin tənqid olunmasından sonra yenidən mövcud hakimiyyətin uğursuzluqlarına toxunulub və bildirilib ki, hakimiyyət Putinin növbəti şantajı altındadır. “Biz artıq Putin tərəfindən gözlənilən şantajı görürük. Belə ki, o, Robert Koçaryanı həbsxanada ziyarət etmək istəyir. Təbii ki, Putin-Koçaryan planının reallizəsi maliyyələşdirilmiş fəallar tərəfindən icra edilir. O da təbiidir ki, həmin sistemin bütün nümayəndələri fəallaşıblar, hansı ki, məğlub olmayıblar və revanşa susayıblar. Bütün bunlar, məhz belə proqnozlaşdırılmışdı!”

“O hakimiyyət ki, xalqda sonsuz inam qazanmışdı, indi onu itirmək üzrədir” deyə yazılan analitik yazıda, artıq belə bir inam formalaşıb ki, mövcud hakimiyyətin tərəfdarları baş verənləri nə qədər inkar etsələr də, artıq gözlənilənlər baş verir. SİTAT: “Zaman onlar üçün geriyə işləməyə başlayıb. Saat əqrəblərinin əks istiqamətə qaçış sürəti daha da artıb - Nikol Paşinyanın Amsular məsələsindəki mövqeyi səbəbindən. Nikol o tərəfdə dayanmadı. Hər kəs gözləyirdi ki, o, xalqın tərəfini qəbul edəcək. Çünki açıq şəkildə məlumat verilmişdi - Amsular yatağında müəyyən qədər uran tapılıb, radioaktiv elementlər isə, həm insan sağlamlığı üçün böyük riskdir, eyni zamanda, geniş coğrafi diapazonda ətraf mühit üçün də təhlükəlidir. İnsanların etiraz aksiyaları da oldu. Lakin Paşinyan öz yolunu seçdi. O, onu hakimiyyətə gətirən xalqın əksinə getdi. O, cəmiyyət arasında parçalanma yaratdı. O öz sonunu tezləşdirdi.”

***Rövşən RƏSULOV***

# Erməni inqilabının başgicəlləndirici dönüşü

***Ermənistan siyasi elitası ölkəni yenidən dağılmış sistemə aparır. SİA xəbər verir ki, bu barədə Ermənistana məxsus lragir.am saytında Artak Hovsepyanın müəllifliyi ilə dərc olunan məqalədə bildirilir. Məqalə müəllifinin sözlərinə görə Ermənistandakı yarımçıq inqlab yarımçıq hamiləlik qədər absurddur və bu məntiq tarixən bütün uğurlu inqilabların nümunələri ilə sübut edilib.***

Məqalədə Makronun fikirlərinə də istinad edilir və onun “Mənim addımım” partiyasının yumşaq və sarsıntılı addımları nəticəsində inqlabi hərəkatın dalana dirəndiyi barədə fikirləri də vurğulanır. Vurğulanır ki, 2018-ci il ərzində yeni Ermənistan hakimiyyəti təkcə ölkə xaricində inqilabi islahatların müttəfiqlərini axtarmadı, həm də həmin müttəfiqlərə əl uzatmaqdan da imtina etdi. Bir il əvvəl fransızdilli ölkələrin zirvə görüşündə tarixi bir fürsətin düşdüyü zaman 80-dən çox ölkə ilə səmərəli əməkdaşlıq qurmaq əvəzinə, Ermənistanın yeni liderlərinin sammiti Asiya ziyafətinə çevirdiyi də məqalədə öz əksini tapır. Qeyd olunduğuna görə Ermənistan hakimiyyəti elə bir mikroölçüyə qədər kiçilib ki, nəinki Amulsar məsələsi, hətta bütün həyati vacib məsələləri, eyni zamanda mənəvi dəyərləri belə təzyiqlərə məruz qalır və bu təzyiqlər qarşısında Paşinyan hakimiyyəti acizdir.

Belə bir tragikomediyanın nəticəsi olaraq Ermənistan ötən əsrdə mütəmadi məruz qaldığı kimi yenə də xarabalıqlarda qalmaq təhlükəsi ilə üz-üzədir. Hazırda bu ölkədəki sürünən təkamül göz qabağındadır. Erməni inqilabının başgicəlləndirici dönüşü qaçılmazdır və bu dəfə Paşinyan, eyni zamanda onun hakimiyyəti hədəfdir.

# Erməni zabitin əsgərlərdən rüşvət almasına dair işin istintaqı başa çatdırılıb



Ermənistanın İstintaq Komitəsinin istintaq idarəsi Müdafiə Nazirliyinin ordu korpusunun şəxsi heyət bölməsinin zabitinin vəzifələrə təyin edilmələri üçün müxtəlif hərbi hissələrin hərbi qulluqçularından külli miqdarda rüşvətalma faktı ilə bağlı başlanmış cinayət işinin ibtidai istintaqını başa çatdırıb. AZƏRTAC Ermənistan KİV-lərinə istinadla xəbər verir ki, bu barədə Ermənistanın İstintaq Komitəsinin informasiya və ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.

İstintaq tərəfindən əldə olunan məlumatlara görə, Müdafiə Nazirliyinin N saylı ordu korpusunun qərargahının kapitanı M.S. 2017-ci ilin iyununda 2018-ci ilin dekabrınadək hərbi hissələrdə işə qəbul, korpusların şəxsi heyətinin siyahıları və səlahiyyətlərinin həyata keçirilməsinə kömək üçün vakant vəzifələrin mövcudluğu barədə rəsmi məlumatlı olmaq, yəni vəzifəyə təyin edilmək üçün təkliflər vermək, xidmətə keçmək, lazımi sənədləri hazırlamaq, müzakirə zamanı müsbət rəy vermək, sənədləri rəhbərin imzasına təqdim etmək və vəzifəyə təyin etmək və s. əməllər nəticəsində Ermənistanın Müdafiə Nazirliyinin müxtəlif bölmələrinin hərbçilərindən külli miqdarda rüşvət alıb. Bununla bağlı kapitan M.S. Ermənistan Cinayət Məcəlləsinin 311-ci maddəsinin 3-cü bəndinin üçüncü bəndi, 38-312-ci maddənin 2-ci bəndi, 11-ci maddəsinin 3-cü bəndinin 3-cü bəndi ilə ittiham edilir. Leytenant H.B. isə Cinayət Məcəlləsinin 312-ci maddəsinin 2-ci bəndi ilə ittiham olunur.

# Müxalifətdaxili haqq-hesab: kim daha çox ermənipərəstdir

## Sosial şəbəkələr müxalifətdaxili mübarizənin yeni meydanına çevrilib

***Müxalifət düşərgəsində yenə "razborka", yenə qarşıdurma. Hər dəfə iqtidar uğurlu bir addım atırsa, dağıdıcı düşərgə ünsürləri də başlayırlar "qaşınmayan yerdən qan çıxarmağa". Elə bu günlərdə, həmişə olduğu kimi, yarandığı gündən bu günə kimi uğurlu inkişaf yolu keçən xalqın partiyası olan Yeni Azərbaycan Partiyasının təşəbbüsü ilə "Siyasi partiyalar siyasi proseslərə xarici müdaxilə cəhdlərinə qarşı" mövzusunda keçirilən dəyirmi masaya belə riyakar və qısqanclıqla yanaşan satqın və mənəviyyatsız partiya sədrləri özlərinin varlıqlarını nümayiş etdirmək üçün yenə də "gah nala, gah mıxa" vururlar. Bu yerdə atalar yaxşı deyib: "aşığın sözü qurtaranda "yarım-yarım" deyir.***




Bir də, bu nə birinci, nə də sonuncu haldır. Bu satqın müxalifət düşərgənin satqınları dünən hansı acınacaqlı durumda idisə, bu gün də həmin vəziyyət müşahidə olunur. Əsasən, söyüşlər, təhqiramiz videoçəkilişlərlə sosial şəbəkələrdə Azərbaycanda görülən işlərə qarayaxmalar, ayrı-ayrı insanlara qarşı ittihamlar, şər və böhtanlar səsləndirən bu erməniperəstlər, şəxsi ambisiyalarına görə, hətta öz aralarında da düşmənçilik aparmağa vaxt tapa bilirlər.

### AXCP- “”REAL”” yenidən didişmədə

Siyasi partiyalar arasında baş verən dialoqdan sonra Ə.Kərimlinin rəhbərlik etdiyi Azərbaycan Xalq Cəbhəsi Partiyası ilə İ.Məmmədovun idarə etdiyi Respublikaçı Alternativ Partiyası ("REAL") arasında olan çəkişmə yenidən qızışıb. “”REAL”” sədri İ.Məmmədov sosial şəbəkələrdə tədbirə dəvət olunmasına sevindiyini və Ə.Kərimli kimi satqınla bir masada oturmağı özünə layiq bilmədiyini söyləyib. Bildirib ki, bu, o Ə.Kərimlidir ki, 2018-ci ilin prezident seçkisindən öncə, sosial şəbəkələrdə ona qarşı kampaniya düzənləyib: "Bu dialoqda Ə.Kərimli ilə bir masada oturmaq onun gündəmdə qalmasına imkan yaratmış olardım. Bunu isə Ə.Kərimli görməyəcək".

### Əli Kərimli İlqar Məmmədovu debata çağırdı

Ə.Kərimlinin İ.Məmmədovu debata çağırması təəccüb də doğurmur. Hər kəsə bəllidir ki, Ə.Kərimli zaman-zaman öz yolunda olan əsas maneələri-müxalifətdəki rəqiblərini müxtəlif vasitələrlə gözdən salıb, onlara qarşı kampaniyalar başladıb, öz ətrafında olan digər partiyalardan olanları, siyasətçiləri bu rəqibi ilə düşmən edib. Elə təkcə bir misalı xatırladaq ki, AXCP sədri ilə uzun illər Müsavat partiyası başqanı olmuş İ.Qəmbər arasında olan uzunmüddətli mübarizə, söz davası, küsülülüklər, fikir ayrılıqları, əvvəlki birliklərdə olduğu kimi, sonuncu birliklərindən - "Milli Şura"dan qopmalar Ə.Kərimlinin nə dərəcədə hiyləgər adam, öz həmkarlarına qarşı amansız davranan biri olduğunu göstərir. İndi isə İ.Məmmədovu hədəfə alan Ə.Kərimli öz "ənənəsinə" sadiq qalır. Cəbhəçiləri sosial şəbəkələr üzərindən səfərbər edərək "REAL"-çılara qarşı qaldıran Ə.Kərimli bu cür xətt götürməyi ilə, əslində, özünü də gözdən salmış olur. Onsuz da Əli Kərimlinin nüfuzu sıfıra enmişdi. Amma "REAL"-la baş-başa gəlməsi sözügedən partiyada təmsil olunanların da ona düşmən olması deməkdir.

Bir sözlə, siyasi partiya adına layiq olmayan sosial şəbəkə xəstələri olan hakimiyyəti, dövləti idarə etmək iddiasında olan xarici qüvvələr tərəfindən idarə olunan istər Ə.Kərimli, istər İ.Məmmədov, istərsə də digər satqınların hazırkı durumu, o qədər acınacaqlıdır ki, öz aralarında yola getməyin formulunu belə, tapa bilmirlər. Heç bir siyasi konsepsiyaları olmayan bu siyasətbazların, əslində, bir fəaliyyət istiqaməti var ki, bu da xaricdən daha çox maliyyə qoparmaqdır. Bütün bu dava-qovğalar da buna hesablanıb.

***Rəfiqə HÜSEYNOVA***

# Bakcell və ASAN könüllüləri növbəti dəfə uşaqları sevindirdilər



Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell şirkəti növbəti dəfə "ASAN Könüllüləri" Təşkilatının "ASAN Məktub" layihəsinin təşəbbüsündə iştirak edib. Təşəbbüs çərçivəsində "ASAN Könüllüləri" Təşkilatı və Bakcell şirkətinin əməkdaşlığı, "Məktəblinin dostu" layihəsinin tərəfdaşlığı ilə xüsusi aksiya təşkil olunub. "Bilik Günü" münasibətilə keçirilmiş bu aksiyanın əsas məqsədi yeni tədris ilinin başlaması ilə əlaqədar olaraq həssas qruplara aid uşaqları sevindirmək, onların arzu və istəklərini reallaşdırmaqdır.

Bakcell nümayəndələri və ASAN könüllülərinin iştirakı ilə keçirilmiş xüsusi tədbirdə 284 nömrəli məktəbdə təhsil alan 25 şagirdə "Bakcell"dən məktəbli çantaları və digər məktəb ləvazimatları hədiyyə edilib.

"ASAN Məktub" layihəsinin əsas məqsədi həssas qruplara aid olan uşaqlara sevinc bəxş etmək və cəmiyyətdə sosial məsuliyyət və qayğı hissini daha da artırmaqdır. Uşaqların saf arzularını reallığa çevirən "ASAN Məktub" layihəsi 14 yaşadək olan uşaqları əhatə edir. Layihə çərçivəsində uşaqların məktubları www.asanmektub.az saytına yerləşdirilir və onların istəkləri müxtəlif şirkətlər və xeyirxah vətəndaşlar tərəfindən gerçəyə çevrilir. Bakcell şirkəti layihəyə həmçinin mobil rabitə dəstəyi göstərir.

Bakcell şirkəti xüsusi qayğıya ehtiyacı olan və həssas qruplara aid uşaqlara dəstək göstərilməsi, onlar üçün bərabər hüquqların, inklüziv təhsil imkanlarının təmin edilməsinə yönəlmiş bir çox layihələrdə fəal iştirak edərək minlərlə uşağa dəstək göstərir. "ASAN Məktub" layihəsi ilə tərəfdaşlıq Bakcell şirkətinə uşaqları sevindirmək və onların saf arzularını həyata keçirmək üçün daha böyük imkan yaradıb.

## Roma Papası Yaponiyaya gedəcək



Roma Papası Fransisk noyabrın 23-dən 26-dək Yaponiyada səfərdə olacaq. Səfər çərçivəsində Papa Tokio ilə yanaşı, Hiroşima və Naqasaki şəhərlərini də ziyarət edəcək. Yaponiya Xarici Mətbuat Mərkəzindən AZƏRTAC-ın bu ölkədəki bürosuna verilən məlumata görə, bu, son 38 ildə Roma Papasının Yaponiyaya ilk səfəri olacaq. Yaponiya Katolik Yepiskopları Konfransının (CBCJ) məlumatına əsasən bu barədə Vatikan rəsmi məlumat yayıb. Bu səfər 1981-ci ildə II İoann Pavelin Yaponiya ilk səfərindən sonra Roma Papasının bu gündoğar ölkəyə ikinci səfəri olacaq.

Qeyd edək ki, 2017-ci ildə dərc edilən məlumata görə, Yaponiyada 440 min 832 yapon katolik yaşayır. Burada yaşayan ümumi xristianların sayı isə 1 milyon 921 min 834 nəfərdir. Yaponiyada 969 kilsə, 42 səhiyyə, 635 sosial təminat, 835 təhsil müəssisəsi fəaliyyət göstərir.

## "Əmək bazarının milliləşdirilməsi sahəsində müsbət nəticələr əldə olunub"

Ölkəmizdə əcnəbi miqrant statusu almaq üçün iki qayda var: iş icazəsindən azad olanlar, yəni daimi yaşayış icazəsi olanlar və Azərbaycan vətəndaşı ilə nikah bağlayanlar. Nazirlər Kabineti bu il əməkçi miqrantlar üçün kvota müəyyənləşdirib və həmin kvotaya əsasən il ərzində 6800 nəfər əcnəbi şəxs işə cəlb edilə bilər. İndiyədək həmin kvotada müəyyən edilən normanın yarısından artıq miqrant müraciət edib. Doğrudur, kvota var, lakin çalışırıq ki, onun mövcudluğu heç bir sahibkarlıq subyekti üçün xüsusi gərginlik yaratmasın. Hətta kvota tam dolsa da, ona yenidən baxılması mümkündür.

AZƏRTAC xəbər verir ki, bu barədə Dövlət Miqrasiya Xidmətinin rəisi Vüsal Hüseynov "Dəyişən dünyada qlobal böhranlar fonunda əməkçi miqrantların əsas problemlərinin həlli yolları" mövzusunda BMT-nin Bütün əməkçi miqrantlar və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi üzrə Komitəsinin Bakıda keçirilən iclasında jurnalistlərlə söhbətində məlumat verib.

O, əmək bazarının milliləşdirilməsi barədə jurnalistlərin sualına cavab verərkən deyib: "Əmək bazarının milliləşdirilməsi dövlətin diqqətdə saxladığı mühüm məsələlərdən biridir. Enerji və neft sektorunda bu layihə uzun müddətdir ki, icra edilir və çox müsbət də nəticələr verir. Həmin sektorda təxminən 90 faiz milliləşməyə cəlb edilib. Ayrı-ayrı illər üzrə də əməkçi bazarının dinamikasını izləsək milliləşmə tədbirlərinin nəticəsini görərik. Lakin burada yanaşma hansısa sahibkarlıq subyekti və ya bazarı sıxmaqdan ibarət deyil. Əlbəttə ki, bu, paralel tədbirlərdir. Yerli iş qüvvəsinin bilik və bacarığını artırmaq, onların əvəzlənməsi prosesini keçirmək, hər hansı bir tikinti və ya səhiyyə sektorunda əcnəbi mütəxəssisi yerli mütəxəssis kompensasiya edirsə, bu, nəticə olaraq milliləşmənin göstəricisidir və həmin proses davamlı olaraq aparılır.

# Xəyanətkar Əli Kərimli siyasətdən getməyə məcbur ediləcək

***Qərbdəki bəzi çevrələr, nəinki seçkilərə, həmçinin, digər proseslərə də AXCP pərdəsi altında müdaxilə etməyə cəhdlər göstərirlər. Sentyabrın 11-də Bakıda "Azərbaycandakı siyasi proseslərə xarici müdaxilələrin yolverilməzliyi" mövzusunda dəyirmi masa keçirilib. Dəyirmi masada siyasi partiyaların, qeyri-hökumət təşkilatlarının və kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak edib. Müsavat partiyasının başqanı Arif Hacılı və KXCP sədri Mirmahmud Mirəlioğluna dəvət göndərilsə də, onlar dəyirmi masaya qatılmayıb, AXCP isə, ümumiyyətlə, dəvət olunmayıb. Sual yaranır, KXCP və Müsavat niyə müsbət çağırışı dəyərləndirmədilər, nədən AXCP-ni, ümumiyyətlə, bu tədbirdə görmək istəmədilər? Söhbət etdiyimiz müsahiblərimiz bildirdilər ki, Müsavat və KXCP tədbirə qatılmamaqla, konstruktiv dialoqa hazır olmadıqlarını nümayiş etdirdilər, AXCP-nin isə dəyirmi masaya dəvət edilməməsinin tutarlı səbəbləri göstərilib.***



### Təkamül Partiyasının sədri Teyyub Qənioğlu: "Müsavat özünün yekəxanalığı ilə fərqlənən bir partiyadır "



- "Azərbaycandakı siyasi proseslərə xarici müdaxilələrin yolverilməzliyi" mövzusunda keçirilən dəyirmi masa günümüzün aktual və əhəmiyyətli mövzularından idi. Müsbət dəyərləndirirəm. Bəzi partiyalar, eləcə də, AXCP tədbirə dəvət edilmədi. Bunun izahı verildi ki, AXCP xaricdəki "söyüş müxalifəti" ilə eyni mövqedən çıxış edir. Bu izah AXCP-ni söyüş söyməyi tərgitdirmək mənası anlamına gəlir. Ancaq onlara, xaricdəki tərəfdaşlarına "söyüş söyməyi tərgidin" deməyin əhəmiyyəti olmayacaq. Müsavat partiyası da həmişə özünün yekəxanalığı ilə fərqlənən bir partiya olub. Yəni Müsavat partiyasının əlindən bir şey gəlmir, amma həmişə özünü üstün tutur. Adını da qoyub - elə bir mövzu seçin ki, o mövzunun, doğruda da, müzakirəyə ehtiyacı olsun. Müsavatın həmin tədbirə qatılmamaq bəhanəsi bu idi. Yəni onlar seçilən mövzunun özləri üçün məqbul olmadığını bəhanə gətirib, gəlmədilər. Hesab edirəm ki, bu, onlar üçün bir bəhanə idi, əslində gəlib nə deyəcəkdilər? Ümumiyyətlə, belə dialoqların keçirilməsinin əhəmiyyəti var. Biz dəfələrlə demişik ki, siyasi mübarizədə sivil yolu seçmək lazımdır. Siyasi mübarizədə söyüş söymək, kiminsə şəxsiyyətinə toxunacaq ifadələr işlətmək yolverilməzdir. Mən tədbirin bəyanatını oxudum, bəyanat məqbuldur və qəbul olunacaq bəyanatdır. Orada deyilir ki, mübarizəni sivil yolla aparaq və xarici qüvvələrin ölkədaxili işlərinə qarışmasına imkan verməyək, mümkün qədər buna qarşı mübarizə aparaq. Bu, məqbul bəyanatdır. Ümumiyyətlə, biz mübarizənin sivil qaydada aparılmasının tərəfindəyik, yəni konstitusiya çərçivəsində, qanunlar çərçivəsində aparılmasının tərəfindəyik. Qurşaqdan aşağı mübarizəni, küçə yürüşlərini və iğtişaşları tamamilə rədd edirik.

### "Palitra" qəzetinin baş redaktoru Namiq Əliyev: "AXCP siyasi dialoq yox, özləri demiş, "mitinq, nümayiş və inqilab yolu"nu seçib"

- İctimai-siyasi proseslərə təsir göstərmək gücündən asılı olmayaraq, ölkəmizdə fəaliyyət göstərən əksər siyasi partiyaların bir araya gəlmələri və konkret bir problem müzakirə etmələri, çox müsbət qiymətləndirilən hadisədir. Sivil ölkələrdə vətəndaş həmrəyliyinin mövcud olmasının əsas şərtlərindən biri dövlətin taleyüklü məsələlərində siyasi qüvvələrin bir araya gəlib, milli maraqlara uyğun yekdil qərar qəbul etmələridir. Bu baxımdan, siyasi partiyaların toplantısında iştirak edən hər bir partiyaya təşəkkür edirik. Toplantıya dəvət edilib, lakin iştirakdan imtina edən KXCP və Müsavat partiyalarının bu addımı isə, təqdirəlayiq hesab edilə bilməz. Çünki iqtidarda olub-olmamasından asılı olmayaraq, bütün siyasi partiyalar dövlətin və cəmiyyətin gələcək taleyi üçün məsuliyyət daşıyırlar. KXCP və Müsavat bu toplantıda iştirak etməli və müzakirə olunan məsələlər barədə öz mövqelərini bildirməli idilər. Məsələn, toplantının yekun bəyanatında əksini tapan çağırışların hansı müsbət deyil? Dağlıq Qarabağ münaqişəsi ilə bağlı atılacaq addımların, silahlı qüvvələrin, islahatların bütün siyasi partiyalar tərəfindən dəstəklənməsi, siyasi mübarizədə etik normaların gözlənilməsi, KİV və sosial şəbəkələrdə böhtana, təhqirə yol verilməməsi, seçkilərə xarici müdaxilə cəhdinin qarşısının birgə alınması kimi müddəaların nəyi pisdir? AXCP-nin bu tədbirə dəvət olunmaması isə onların ictimai-siyasi proseslərdə tutduğu radikal mövqe ilə bağlıdır. AXCP siyasi dialoq yox, özləri demiş, "mitinq, nümayiş və inqilab yolu"nu seçib. Əslində, müzakirə olunan mövzu - "Siyasi proseslərə xarici müdaxilənin yolverilməzliyi" tematikası onların fəaliyyəti ilə uyğun gəlmir. Belə ki, AXCP rəhbərliyi Qərb ölkələrinin səfirləri ilə ölkəmizdəki siyasi prosesləri müzakirə etmələrini, heç cəmiyyətdən gizlətmirlər də... İndidən bəllidir ki, Qərbdəki bəzi çevrələr, nəinki seçkilərə, həmçinin, digər proseslərə də AXCP pərdəsi altında müdaxilə etməyə cəhdlər göstərirlər.

***GÜLYANƏ***

# Rəşid Hacılı, get anqır və tayını tap!

***Özünü "Media Hüquqları İnstitutu"nun rəhbəri kimi təqdim edən Rəşid Hacılı Azərbaycan jurnalistlərini təhqir edən karikatura paylaşaraq, erməni lobbisindən və avropalı havadarlarından aldığı növbəti çirkin sifarişi yerinə yetirib. Ölkəsinin, dövlətinin, xalqının, eləcə də, dövlətçilik mənafe və maraqlarının xidmətində dayanan media mənsublarının guya "sümüyə getmələrini" iddia edən R.Hacılı, əslində, özünü və özü kimi düşünənlərin iç üzünü ifşa etmiş olub.***



### Əqidəli və vətən sevdalısı olan iqtidar jurnalistləri heç vaxt və heç zaman öz dövlətindən nə isə ummurlar, Rəşid Hacılı!

Bu mənada, həmin ünsürə bir sıra xatırlatmaları etmək vacibliyi yaranır...

R.Hacılı, demək belə çıxır ki, sən guya öz sərsəm təbirincə, karikatura paylaşmısan və yenə də həmin sərsəm təbirinə görə, iqtidaryönlü jurnalistlərin "yemə getdiklərini" göstərməyə cəhd etmisən. Lakin sən və sənin ətrafın, hələ də anlamırsınız ki, dövlətin mənafeyi, dövlətçilik maraqları, xalqı üçün çalışan yazarlardan və jurnalistlərdən fərqli olaraq, sizin kimiləri birbaşa Azərbaycanın düşmənlərinə nökərçilik edirlər. İqtidarın şərəfli media mənsubları isə öz fəaliyyətləri ilə qürur duyurlar. Çünki onların hər biri birbaşa dövlətin maraqlarının qorunması, inkişaf etdirilməsi üçün çalışırlar, bütün ağrı-əzablara, çətinliklərə sinə gərib, qəlbən, hətta təmənnasız tərzdə bu xidmətlərini göstərməkdədirlər! Və kimlər ki, göstərdikləri xidmətləri müqabilində dövləti, ölkə rəhbərliyi tərəfindən qiymətləndirilirsə, bu, o demək deyil ki, bunu pula-paraya görə edir. Əqidəli və vətən sevdalısı olan iqtidar jurnalistləri heç vaxt, heç zaman öz dövlətindən nə isə ummurlar, Rəşid Hacılı. Bunu bil və xain düşüncələrlə dolmuş qafana yerləşdir!

Jurnalist, ilk növbədə, dövləti naminə öz əzmini və iradəsini ortaya qoyur, əlbəttə ki. Sənin və sənin kimi qondarma və xain qələmbazlardan fərqli olaraq.

### Rəşid Hacılı, sən kimin samanına, ot-ələfinə və yalına gedib, ağzını sulandırırsan?

Sual yaranır: bəs sənin kimi ünsürlər kimə, nəyə xidmət edirlər? Sizlər hansı dairələrin yükünü daşıyırsınız? Yaxşı, bizi "sümüyə gedən" kimi göstərən Rəşid Hacılı, sən kimin samanına, ot-ələfinə və yalına gedib, ağzını sulandırırsan? Erməni yeminəmi, Soros daydayının yalınamı? Yəni sən qısqırdılaraq, quduzlaşdırılaraq öz dövlətinə, xalqına qarşı yönəldiləndə yaxşıdır, öz dövlətinə xidmət edən şərəfli jurnalistlər cameəsi pismidir?!

Əgər bizlər öz dövlətimiz üçün çalışırıqsa, lap əla edirik, amma sən və sənin kimi ot-ələfə, yala-yalmana gedənlər belləri üzərindəki palan üzərində erməni aşnalarınızı, qərbli ağalarınızı daşıyanlar ara-sıra yemlənərək, Azərbaycan dövlətinə qarşı çıxırsınız. Bax, məntiq də bundadır ki, Rəşid Hacılı, get anqır və tayını tap, necə ki, tapmısan...

***Rövşən NURƏDDİNOĞLU***

## Bakı sakinindən narkotik maddə götürülüb

Şirvan Şəhər Polis Şöbəsi əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olmaqda şübhəli bilinən Bakı şəhər sakini Naim Süleymanov saxlanılıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin Şirvan regional qrupundan AZƏRTAC-a verilən məlumata görə, onun üzərində axtarış aparılarkən 33 qram heroin aşkarlanaraq götürülüb. Faktla bağlı Şirvan Şəhər Polis Şöbəsinin İstintaq bölməsində araşdırma aparılır.

## Mobil telefonların ölkəyə qanunsuz yolla gətirilməsi cəhdinin qarşısı alınıb

Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin əməkdaşları xeyli sayda mobil telefonun ölkənin gömrük sərhədindən gömrük nəzarətinə bəyan edilmədən gizli keçirilməsi cəhdinin qarşısını alıblar. Dövlət Gömrük Komitəsinin Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsindən AZƏRTAC-a bildirilib ki, Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin Əməliyyat və Təhqiqat İdarəsinə daxil olan məlumat əsasında Doha-Bakı aviareysi ilə gələn Pakistan vətəndaşları nəzarətə götürülüb. Həmin şəxslər "Yaşıl kanal" buraxılış sistemi vasitəsilə gömrük nəzarət zonasını tərk etmək istəyərkən gömrükçülər tərəfindən saxlanılıb və "Qırmızı kanal"a yönləndirilib. Daha sonra təkrar baxış keçirilməsi üçün yoxlama otağına dəvət olunublar. Bu zaman Pakistan vətəndaşlarından, ümumilikdə 10 ədəd "iPhone" markalı mobil telefon aşkarlanıb. Araşdırma nəticəsində məlum olub ki, həmin vətəndaşlardan biri "iPhone" markalı mobil telefonları gömrük nəzarətinə əvvəlcədən şifahi, yazılı və ya elektron formada bəyan etmədən güzəştli qaydada keçirmək məqsədilə onunla birlikdə Doha-Bakı aviareysi ilə gələn sərnişinlərə paylayıb. Faktla bağlı araşdırma aparılır.

***Bəzi vəzifəli şəxslər və ayrı-ayrı məmurlar qanunun aliliyinə, habelə, “Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında” Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 24 noyabr tarixli Fərmanının 7-ci bəndi ilə mərkəzi və yerli icra hakimiyyəti orqanlarının rəhbərlərinin üzərinə qoyulmuş, vətəndaşların müəyyən olunmuş qrafikə uyğun olaraq qəbulunun, onların müraciətlərinə, ərizə və şikayətlərinin vaxtında baxılmasının və haqlı tələblərinin həllinin təmin olunması ilə bağlı tapşırığa yetərincə əməl etməmişlər.***

Rəsmi məlumata əsasən, “Dövlət qulluqçularının etik davranış qaydaları haqqında” Azərbaycan Respublikası Qanununun müddəalarının tələblərini pozan 404, o cümlədən, 321 mərkəzi icra hakimiyyəti orqanlarında, 83-ü isə yerli icra hakimiyyəti orqanlarında qulluq keçən dövlət qulluqçusu barədə intizam-tənbeh tədbiri tətbiq edilmişdir. Həmin intizam-tənbeh tədbirlərindən 357-si töhmət, 27-si vəzifə maaşının azaldılması, 13-ü dövlət qulluğundan azad edilmə, 7-si həmin təsnifatdan olan, lakin vəzifə maaşı aşağı olan vəzifəyə keçirilmə olmuşdur.

Əhalinin qayğıya, maddi və mənəvi dəstəyə daha çox ehtiyacı olduğu mövcud şəraitdə vətəndaşların dövlət orqanlarına müraciətlərinə diqqətlə yanaşılması, məmurların öz səlahiyyətlərindən sui-istifadə elməsi hallarına son qoyulması, insanların problemlərinin həllinə istiqamətləmiş tədbirlər görülməsinə səy göstərilməsi, vətəndaşlarla münasibətdə etik davranış qaydalarına riayət edilməsi son dərəcə vacibdir.

Hər bir vəzifəli şəxs və məmur, artıq dərk etməlidir ki, hazırkı dövr proseslərə tamamilə yeni yanaşmanı tələb edir və vətəndaşların istənilən məsələ ilə bağlı dövlət qurumlarına ünvanladığı müraciətlərini cavabsız və ya nəticəsiz qalması tamamilə yolverilməzdir.

artıq 8 milyon müraciət qəbul etmiş “ASAN Xidmət” mərkəzlərinin fəaliyyəti vətəndaş müraciətlərinin vaxtında cavablandırılmasında, bürokratik əngəllərin, korrupsiyanın qarşısının alınmasında mühüm önəm daşımaqdadır. Ölkə Prezidentinin müvafiq göstərişlərinə əsasən, bu mərkəzlərə həvalə olunan xidmətlərin sayının getdikcə artırılması vətəndaş müraciətlərinin və onların problemlərinin maneəsiz həllinə və əhalinin razılığına səbəb olmuşdur.

Məqsədi əhaliyə xidmətlərin göstərilməsində şəffaflığın təmin edilməsindən, müasir texnologiyaların tətbiqindən, dövlət qulluqçusu-vətəndaş münasibətlərində yeni düşüncə tərzinin formalaşdırılmasından, nəticə etibarilə, vətəndaşların razı salınmasından ibarət olan bu mərkəzlər vətəndaşla dövlət arasında qarşılıqlı etimada əsaslanan münasibətlərin daha da inkişaf etdirilməsinə çalışmalıdır.

İqtisadi böhranın törətdiyi çətinliklərdən bu və ya digər dərəcədə zərər çəkmiş, nəticədə, istehsal gücünü dayandırmaq, ştatları ixtisar etmək, iş vaxtını uzatmaq və ya kəsmək, sosial paketləri və əmək haqlarını aşağı salmaq məcburiyyətində olan, işçilərin gələcəyinə laqeydliklə yanaşan bəzi biznes strukturlarının vətəndaşa və işçiyə münasibətdə məsuliyyət hissinin artırılması məqsədilə Əmək

Müvəkkilin də təklifləri nəzərə alınaraq, ünvanlı yardımın təyini prosesi təkmilləşdirilməkdədir. Nazirlər Kabinetinin 2016-cı il 5 fevral tarixli, 37 nömrəli Qərarına əsasən, həmin Qaydalar ləğv edilmiş, yeni redaksiyada mütərəqqi müddəaların əks olunduğu “Ünvanlı dövlət sosial yardımının alınması üçün müraciət edilməsi, onun təyin olunması, verilməsi və verilməsindən imtina edilməsi Qaydaları” təsdiq edilmişdir. Yeni Qaydalarda yardımın təyin olunmasından imtina siyahısından təhsil haqqı və kredit öhdəliyi məsələləri çıxarılmışdır. Bununla belə, təkmilləşdirmə işinin davam etdirilməsi zəruridir.

Qeyd olunanlarla yanaşı, Müvəkkil əlçatanlığın təmin olunması üzrə tədbirlərin davam etdirilməsini, ünvanlı dövlət sosial yardımının, habelə, əlilliyin və sağlamlıq imkanları məhdudluğunun müəyyən edilməsinin də “ASAN Xidmət” mərkəzlərinə həvalə olunmasının sürətləndirilməsini məqsədəuyğun hesab edir.

Şəkərli diabet xəstəliyinə tutulmuş, QİÇS və narkomaniyadan əziyyət çəkən, şəxslər üçün dərman preparatlarının, təhlükəli yoluxucu xəstəliklər siyahısına daxil edilmiş hepatit “C” və “B” virusuna yoluxmuş xəstələrin dövlət hesabına dərman preparatları ilə təmin olunması ilə bağlı mü-




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb*

# Azərbaycanda qanunun aliliyi və insan haqları

Sosial məsuliyyətin gücləndirilməsinə ehtiyac olduğu bir vaxtda, hər bir vəzifəli şəxs bilməlidir ki, dövlətin yürütdüyü siyasətin mərkəzində vətəndaş dayanır və bütün səylər onun rifahına xidmət etməli və sosial proqramların icrasına yönəldilməlidir.

Odur ki, vəzifəli şəxslər, qanunvericiliklə müəyyən edilmiş qaydada, vətəndaşların müntəzəm qəbullarını təşkil etməli, onların problem və tələblərini dinləməli, əhali arasında zəruri izahat və məsləhət işi aparmalı, insan hüquqlarının təmin edilməsinə yönəlmiş tədbirləri genişləndirməli, yerlərdə sahibkarlara lazımi şərait yaradılmalı, müasir istehsal və sənaye sahələrinin, yeni iş yerlərinin yaradılmasına dəstək verməli, məhsuldar qüvvələri və sahələri sosial-iqtisadi inkişafa və əhalinin rifah halının yüksəlməsinə cəlb etməlidirlər.

Bu baxımdan, ölkə Prezidentinin göstərişi ilə səlahiyyətli dövlət qurumlarının rəhbərlərinin, müntəzəm olaraq, respublikanın şəhər və rayonlarında əhali ilə görüşlər keçirməsi, vətəndaşları qəbul etməsi, onları narahat edən məsələlərin həlli üzrə konkret tədbirlər görülməsi təqdirəlayiq haldır və əhali tərəfindən razılıqla qarşılanır.

Qeyd edilməlidir ki, 200-dən artıq elektron xidmət göstərən və

və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin fəaliyyəti səmərələşdirilməli və gücləndirilməlidir. Həmin nazirliyin tabeliyində olan məşğulluq mərkəzlərinin fəaliyyəti də yenidən qurulmalı, əhalinin məşğulluğunun təmin edilməsinə yanaşma daşların əmək hüquqlarının etibarlı müdafiəsi istiqamətində dəyişilməlidir.

Əhalinin qayğıya ehtiyacı olan qruplarına sosial müavinətlərin təyin olunması və verilməsinin hüquqi əsaslarını tənzimləyən “Sosial müavinətlər haqqında” Azərbaycan Respublikası Qanununun əhalinin hüquqlarının müdafiəsi baxımından təkmilləşdirilməsi zəruridir.

Sosial dəstəyə böyük ehtiyacı olan aztəminatlı ailələrə ünvanlanmış, kənd yerlərində şəxsi təsərrüfatın inkişaf etdirilməsi üçün natura şəklində yardımı, rayon mərkəzlərində (şəhərlərdə) isə kiçik biznesə birdəfəlik maddi dəstəyi, kommunal xidmətlərdən istifadə üzrə güzəştin müəyyən edilməsini, fərdi ev tikmək üçün torpaq sahəsinin ayrılmasını, tikinti materiallarının alınması üçün güzəştli kreditlərin verilməsini nəzərdə tutan “Aztəminatlı ailələrə sosial dəstək proqramı” layihəsinin hazırlanması və tətbiq edilməsi məqsədəmüvafiqdir.

vafiq siyahının genişləndirilməsi zəruridir.

Ahıl qadın və kişilər üçün tibb xidmətlərinin və dərmanların qiymətlərinin əlçatan olması və tibbi sığorta məsələsinin həlli məqsədəuyğundur.

Məktəbəqədər təhsil müəssisələri şəbəkəsinin genişləndirilməsi uşaqların sayı ilə bu təhsillə əhatə səviyyəsi arasında nəzərəçarpacaq fərqin aradan qaldırılmasına imkan verə bilər.

Təhsil prosesində əldə olunan bilik və bacarıqlar, həmçinin, etik-əxlaqi norma və dəyərlər hər bir təhsil alanın cəmiyyətin layiqli üzvü olması üçün lazımi şərait yaratmalıdır. Tədris prosesinin düzgün təşkil edilməsi, məktəb rəhbərliyinin öz üzərinə düşən vəzifələrin müəyyən edilmiş qaydada icra etməsi təhsilin səviyyəsinin artırılmasında əhəmiyyətli vasitədir. Bununla yanaşı, şagirdlərə qarşı kobud və ləyaqəti alçaldan hərəkətlərə, fiziki və mənəvi zorakılığa yol verilməsinə görə məsuliyyətin də ciddiləşdirilməsi zəruridir.

Ümumiyyətlə, məktəbəqədər təhsil müəssisələrinin Təhsil Nazirliyinin tabeliyinə qaytarılması, həmçinin, istər bu müəssisələrin, istərsə də orta məktəblərin birbaşa həmin nazirliyin büdcəsindən maliyyələşdirilməsi məqsədəmüvafiqdir.

Aztəminatlı ailələrdən olan tələbələrə təhsil haqqının ödənilməsində güzəştlərin nəzərdə tutulması olduqca əhəmiyyətlidir. Əlverişli üsullardan biri kimi ipoteka krediti almaq imkanları asanlaşdırılmalı, ipoteka kreditləşməsi sistemi təkmilləşdirilməli, habelə, sosial mənzil fondunun yaradılması əhalinin, xüsusilə, gənc və aztəminatlı ailələrin mənzil və yaşayış evlərinə artan tələbatının ödənilməsinə imkan verə bilər. Bu kreditin regionlarda da genişləndirilməsi əhalinin bölgələrdə dayanıqlığını və məskunlaşması prosesini daha da möhkəmləndirər.

“Daşınmaz əmlakın dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanunu qüvvəyə minənədək, əldə edilmiş və yaranmış daşınmaz əmlak obyektləri üzərində hüquqların əldə edilməsini təsdiq edən sənədlərin Siyahısı”nın genişləndirilməsi vətəndaşlar tərəfindən müxtəlif vaxtlarda, o cümlədən, bələdiyyələrin fəaliyyətə başladığı vaxta qədər fərdi ev tikintisi üçün verilmiş torpaq sahələrində tikilmiş evlərin dövlət qeydiyyatına alınması sahəsində hələ də mövcud olan bəzi çətinliklərin həllinə imkan verə bilər.

Məcburi köçkünlər tərəfindən, xüsusilə, Bakı şəhərində zəbt edilmiş ev, mənzil və digər tikililərin sahiblərinin pozulmuş hüquqlarının bərpası məqsədilə həmin ailələrin onlar üçün yeni tikilən binalara köçürülməsi məqsədəuyğundur.

Qeyd edilənlər və mövcud vəziyyət insan hüquqlarının və azadlıqlarının daha səmərəli müdafiəsi və etibarlı təmin edilməsi məqsədilə sosial-iqtisadi həyatın bütün sahələrində ictimai nəzarət institutunun tətbiq edilməsini və genişləndirilməsini, həmçinin, mərkəzi dövlət qurumları tərəfindən müvafiq yerli struktur bölmələrinin işinə nəzarətin gücləndirilməsi də zəruridir. Prezident İlham Əliyev 2015-ci ildə “Respublika Günü” münasibətilə keçirilən rəsmi qəbuldakı nitqində demişdir: “...İctimai nəzarət olmasa, ölkəmiz uğurla inkişaf edə bilməz. Bir adam - Prezident, yaxud da ki, rəhbər işçilər hər bir sahəni daim diqqət mərkəzində saxlaya bilməz. Ona görə, bəzi hallarda qanunsuzluqlar, qanun pozuntuları, sosial ədalətin pozulması halları baş verir. Bu, bizi çox üzür. Biz buna yol verə bilmərik. Bunun qarşısını almaq üçün mütləq çox güclü ictimai nəzarət olmalıdır.”

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

SƏS

Son səhifə 14 sentyabr

## Yüz yaşını qeyd edən yaponların sayı 70 min nəfəri ötüb



Yüzillik yubileyini qeyd edən yaponiyalıların sayı ölkə tarixində ilk dəfə olaraq 70 min nəfəri ötüb, onların böyük əksəriyyətini qadınlar təşkil edir. TASS informasiya agentliyi xəbər verir ki, bu barədə Yaponiya Səhiyyə, Əmək və Rifah Nazirliyi "Yaşlılar günü" ərəfəsində məlumat yayıb. Ümumilikdə Yaponiyada yüz yaşı tamam olan insanların sayı 71 min nəfəri keçib. Onlardan 8463 nəfəri kişi, 62700 nəfəri isə qadındır. Uzunömürlülərin sayında artım tempi rekordu son 49 ildir ki, daim yenilənir. Bu sahədə tədqiqatın başladığı 1963-cü ildə ölkədə yüz yaşdan yuxarı vətəndaşların sayı cəmi 153 nəfər idisə, son 30 il ərzində isə onların sayı 23 dəfə artıb. Nazirliyin fikrincə, uzunömürlülüyün əsas səbəbi tibbi xidmət texnologiyalarında baş verən inkişaf və sağlamlığı möhkəmlənməsi üçün edilən cəhdlərdir. Hakimiyyət yaşlı insanların sağlam həyat yaşamaları üçün dəstək verəcəyini vəd edib.

## Alimlər: Rumıniya leyi dünyanın ən "çirkli" puludur

Türkiyə, Hollandiya və Almaniyadan olan alimlər bakteriyaları asanlıqla keçirən və üzərində çox bakteriya qalan valyutaların siyahısını açıqlayıb. AZƏRTAC xəbər verir ki, araşdırmaya əsasən, ən "çirkli", üzərində bakteriyalar çox olan valyuta rumın pulu ley seçilib. Eyni zamanda, bakteriyalar ABŞ və Kanada dollarları, eləcə də Hindistan rupisində də çox qalırlar. Qeyd olunur ki, Rumıniya leyinin ən "çirkli" pullar siyahısında birinci yer tutması bu valyutanın tərkibində saxtalaşdırmanın qarşısını alan və onu uzunmüddətli edən polimerlərin olması ilə əlaqələndirilir. Araşdırmaya görə, alimlər iqtisadiyyat üzrə Şnobel mükafatına ("Ig Nobel Prize") layiq görülüblər. Mükafatlandırma mərasimi Harvard Universitetində keçirilib. Qeyd edək ki, Şnobel mükafatı ən absurd elmi nailiyyətlər və qeyri-standart ideyalara görə verilir.

## Meyvə-tərəvəzlər 20 dəqiqə suyun içində saxlanıldıqdan sonra qəbul edilməlidir

Düzgün qidalanma sağlam həyatı şərtləndirən vacib şərtlərdəndir. Sağlamlığı qorumağın əsas şərtlərindən biri də qida zəhərlənmələrindən qorunmaq, tərkibində bakteriyalar olan məhsullardan uzaq olmaqdır.

Qida bakteriyaları təbiətdə geniş yayılıb. Onlar nəm və isti yerlərdə isə çox yayılmaq xüsusiyyətinə malikdir. Quruluşca müxtəlif olan bakteriyalar Güneş şüası altında məhv olurlar, çünki ətraf mühit quru və güneşli olduqda onlar tab gətirə bilmir.

Bakı şəhər Kliniki Tibbi Mərkəzin yoluxucu xəstəliklər şöbəsinin müdiri Gülnarə Babayeva AZƏRTAC-a deyib: "Qida zəhərlənməsinin qarşısını almağın bir neçə yolu var. İlk növbədə, qidaların saxlanma şəraitinə fikir vermək lazımdır. Daha çox soyuducunun buz dolabında saxlanılan qidalara üstünlük verilməlidir. Yeyilən bütün meyvə-tərəvəzlər 20 dəqiqə suda saxlanılmalıdır. Mikroblar suda həll olunduğu üçün təmizlənir, qəbul edilən qidalar daha gigiyenik olur və zəhərlənmələrin sayı azalır".

Mütəxəssislər xalq arasında doğru olduğu düşünülən bir çox məlumatların əslində yanlış təsir bağışladığını bildirirlər. Buna misal olaraq əlləri isti su ilə və antibakterial sabunla yumanın bakteriyaları məhv etməsi inancını nümunə gətirmək olar. Araşdırmalara görə, əlləri isti su əvəzinə ılıq su ilə yumaq məqsədəuyğun hesab edilir, çünki isti su dərini qurudur, dəridə çatların əmələ gəlməsinə səbəb olur. Bu yolla da bakteriyalar dəriyə daha tez daxil olur və çoxalır. Bundan əlavə əlləri antibakterial yox, adi sabunla təmizləmək də kafi hesab edilir.

Başqa bir misal geniş istifadə edilən ət məhsulları ilə bağlıdır. Əti bişirmədən əvvəl mütləq yumağın vacibliyi haqqında deyilənlər düzgün deyil. Doğrudur, ətin yuyulması bakteriyaların bir hissəsini öldürsə də, onların digər yeməklərə və mətbəx əşyalarına keçmək ehtimalını artırmış olur.

Şöbə müdiri bu barədə deyib: "Ət soyuducunun buz dolabından çıxarılandan sonra 2 saat ərzində buz əriyənə qədər onun sterilliyi saxlanılır. Həmin vaxtdan sonra mikroblar ətə sirayət edə bilər. Ona görə də əti normal hava şəraitində 2 saatdan artıq saxlamaq olmaz". Xüsusən yaz və yay aylarında təbiətin bizə bəxş etdiyi bol vitaminli məhsullardan faydalanmaq, qida bakteriyalarının orqanizmə mənfi təsirindən qorunmaq lazımdır.

## Azərbaycan boksçusu dünya çempionatında növbəti mərhələyə vəsiqə qazanıb



Sentyabrın 13-də Azərbaycan boksçusu Lorenzo Sotomayor Rusiyanın Yekaterinburq şəhərində keçirilən kişi boksçular arasında dünya çempionatında ilk görüşünə çıxıb. AZƏRTAC xəbər verir ki, 69 kiloqram çəki dərəcəsində mübarizə aparan boksçumuzun rəqibi Avstriya təmsilçisi Yason Mallya olub. L.Sotomayor gərgin keçən döyüşdə rəqibini 3:2 (28:29, 28:29, 30:27, 30:27, 29:28) hesabı ilə məğlub edərək onaltıdabir finala yüksəlib. O, növbəti mərhələdə əlcəzairli Şəmsəddin Kramounu sınağa çəkəcək. Görüş sentyabrın 16-da baş tutacaq.

Dünya çempionatında yarışlar yeni qaydalara əsasən 8 çəki dərəcəsində təşkil olunur. Təsnifat mərhələsinin qarşılaşmaları sentyabrın 9-dən 17-dək keçiriləcək. Ayın 18-də boksçular dörddəbir final mərhələsində yarışacaqlar. Ertəsi gün istirahət edəcək idmançılar sentyabrın 20-də yarımfinal görüşlərini keçirəcəklər. Qaliblər ayın 21-də müəyyənləşəcək. Xatırladaq ki, sentyabrın 9-da boksçumuz Amin Kuşkov otuzikidəbir finalda Türkmənistan idmançısı Nursahat Pazziev 4:1, sentyabrın 11-də isə Tayfur Əliyev isveçrəli Tiaqo Puqnonu 5:0 hesabı ilə məğlub ediblər. Ötən gün isə Bəxtiyar Qazıbəyov Qazaxıstan təmsilçisi Zakir Safyullinə uduzaraq çempionatı tərk edib.

## Bakıda keçiriləcək dünya çempionatının səfiri azarkeşlərlə görüşüb



Bədii gimnastika üzrə dünya çempionatının səfiri Yana Batırşina yarışın təşviqat və təbliğatı üçün hazırlanan xüsusi proqram çərçivəsində bir sıra tədbirlər və görüşlərdə iştirak edir. Azərbaycan Gimnastika Federasiyasının saytında yer alan məlumatda deyilir ki, bu dəfə səfirin imza günü keçirilib. Əvvəlcə tanınmış şoumen Murad Dadaşov Y.Batırşinanı tamaşaçılara təqdim edib.

Sonra başlayan gimnastika şousunda azyaşlı atletlər məharətlərini nümayiş etdiriblər. İştirakçıların marağına səbəb olan görüşün sonunda Y.Batırşina xüsusi kartları imzalayaraq tamaşaçılara hədiyyə edib, onlarla xatirə şəkilləri çəkdirib.

## FİFA-nın sabiq vitse-prezidenti ömürlük cəzalandırıldı



Cənubi Amerika Futbol Konfederasiyasının (KONMEBOL) keçmiş prezidenti, FİFA-nin sabiq vitse-prezidenti Xuan Anhel Napout futbol faəliyyətindən ömürlük kənarlaşdırılıb. FİFA-nın rəsmi saytında yer alan məlumatda deyilir ki, sözügedən qərar qurumun etika komitəsinin arbitraj palatası tərəfindən qəbul edilib. Napout rüşvət almaqda günahkar bilinib. O, həmçinin, 1 milyon İsveçrə frankı məbləğində cərimələnib. Qeyd edək ki, Anhel Napout 2015-ci ildə FİFA-da çalışıb.

## Yurgen Klopp ötən ayın ən yaxşı baş məşqçisi seçilib



Futbol üzrə İngiltərə Premyer Liqasında avqust ayının ən yaxşı baş məşqçisi məlum olub. Belə ki, "Liverpul"un çalışdırıcısı Yurgen Klopp ötən ayın ən yaxşısı seçilib. Bu barədə Mersisayd klubunun rəsmi saytı məlumat yayıb. Almaniyalı məşqçinin komandası ötən ay Premyer Liqanın ilk 4 turunda keçirdiyi bütün oyunlarda qələbə qazanıb.

Qeyd edək ki, Klopla yanaşı, Pep Qvardiola ("Mançester Siti"), Roy Hocson ("Kristal Pelas") və Brendan Rocers ("Lester") də bu mükafata namizəd idilər.

Baş redaktor:
Bəhruz Quliyev
Baş redaktorun müavinləri:
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600